# SÜLH TƏŞƏBBÜSÜNƏ VERİLƏN DƏYƏR



Azərbaycan Prezidentinin “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməsinin başlıca səbəbi 30 illik münaqişənin sona çatdırılmasında oynadığı müstəsna roldur.

Müsəlman Ağsaqqalları Şurasının baş katibi M.Əbdülsalam deyib ki, memarı Prezident İlham Əliyev olan sülh gündəliyinin dünyaya nümunə ola biləcəyini münsiflər heyətinin üzvləri də qeyd edirlər: “Mükafatın Sizə təqdim edilməsi sazişin sülh, barışıq və regional sabitliyin bərqərar edilməsi baxımından əhəmiyyətini göstərir”.

Prezident İlham Əliyev münsiflər heyətinin üzvləri ilə görüşdə sülhün regional sabitlik və firavanlıq baxımından önəminə toxunub. Deyib ki, işğal zamanı xalqımızın üzləşdiyi əziyyətlərə, verdiyi qurbanlara baxmayaraq, Azərbaycan dayanıqlı sülhün bərqərar olunması üçün güclü siyasi iradə nümayiş etdirib.

SƏHİFƏ 2-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

24 YANVAR ŞƏNBƏ 2026 № 03 (4254) Qiyməti - 60 qəpik www.kaspi.az



## “İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ ÖLKƏMİZ ÜÇÜN BİRİNCİ PRİORİTETDİR”




# PREZİDENTİN ZƏNGİN DAVOS GÜNDƏLİYİ

Azərbaycan Davos Forumunda aktiv iştirak etdi. Prezident İlham Əliyevin çoxsaylı görüşləri, müxtəlif platformalarda xüsusi qonaq qismində çıxışları, sülh təşəbbüsü ideyasına qoşulması ölkəmizin dünyada artan nüfuzunun göstəricisidir.

**PROSESLƏRƏ YÖN VERƏN AKTOR**

Dünyanın siyasi və iqtisadi elitasını bir araya toplayan builki Davos Forumu Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən məqamlarla yadda qaldı. Ölkəmiz Forumda Prezident İlham Əliyevin iştirakı ilə təmsil olundu. Dövlət başçısının çoxsaylı görüşləri, müxtəlif platformalarda xüsusi qonaq qismində çıxışları, ABŞ Prezidenti Donald Trampın sülh təşəbbüsü ideyasına qoşulması Azərbaycanın dünyada artan nüfuzu və beynəlxalq aktor olaraq proseslərə yön verən oyunçu kimi dəyərləndirildiyinin göstəricisidir.

SƏHİFƏ 8-9-da

“Hazırkı gənclik informasiya selinin içərisindədir”

## “XARİCDƏKİ SOYDAŞLARIMIZ DA DİLLƏRİNİ UNUTMAMALIDIRLAR”



“Azərbaycan dili inkişafına görə dünya dilləri içərisində 25-ci yerdədir”. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin “Kaspi” qəzeti ilə birgə reallaşdırdığı “Məktəbdə” layihəsinin qonağı olan Atatürk Mərkəzinin rəhbəri, akademik, dilçi alim Nizami Cəfərov şagirdlərlə söhbətində Azərbaycan dili, dövlətimizin dil siyasəti haqqında maraqlı məlumatlar verdi.

SƏHİFƏ 4-də

## De-yure Danimarkanın, de-fakto ABŞ-nin




ABŞ ilə Aİ arasında Qrenlandiya ilə bağlı gərginlik səngiyib. Vaşinqtonun tələblərinə qarşı çıxan Aİ ölkələrini rüsumlarla hədələyən ABŞ Prezidenti Donald Tramp geri addım atıb. “ABŞ Qrenlandiya ətrafındakı vəziyyətə görə bir sıra Avropa ölkələrinə qarşı planlaşdırılan yeni tariflərin tətbiqindən imtina edəcək”, - deyə o bildirib.

SƏHİFƏ 5-də

## Azərbaycanda yanacaq balansı dəyişir



Azərbaycanda “Aİ-95” markalı benzinin istehsalı azalır, dizel yanacağının istehsal həcmi isə artır. Rəsmi statistika yanacaq bazarında istehsal strukturunun dəyişdiyini göstərir. Ekspertlər bu prosesin iqtisadi fəallıq, logistika axınları və regional yanacaq təminatındakı boşluqlarla bağlı olduğunu bildirirlər.

SƏHİFƏ 7-də

## Məntiqli seçimdir, lakin “əmma”sı da çoxdur



Elm və Təhsil Nazirliyi uşaq sayı az olan ucqar kənd məktəblərinin bağlanması, şagirdlərinin onlayn təhsilə cəlb edilməsi ilə bağlı pilot layihə icra etməyə hazırlaşır. Bu barədə Elm və təhsil naziri Emin Əmrullayev bildirib. Amma nazirin açıqladığı bu pilot layihə ilə bağlı fikirlər birmənalı deyil.

SƏHİFƏ 12-də

SOCAR “Baleine” layihəsində pay alıb

SƏHİFƏ 10-da



Bir mübahisə, onlarla zərərçəkən

SƏHİFƏ 6-da



Menyuda dəvə, qutabda...

SƏHİFƏ 13-də



Mərhəmətdən sui-istifadə fırıldağı

SƏHİFƏ 11-də



Dramatik oyunda möcüzəvi sonluq

SƏHİFƏ 16-da

# SÜLH TƏŞƏBBÜSÜNƏ VERİLƏN DƏYƏR

Azərbaycan Prezidentinin “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməsinin başlıca səbəbi 30 illik münaqişənin sona çatdırılmasında oynadığı müstəsna roldur. Memarı Prezident İlham Əliyev olan sülh gündəliyinin dünyaya nümunə ola biləcəyini mükafatın münsiflər heyətinin üzvləri də qeyd edirlər.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Tarixi Zəfərimizdən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan və Ermənistan arasında yaradılan sülh gündəliyinin əks-sədası çox qısa zaman kəsiyində dünyanın bir çox bölgələrindən eşidilir. Qalib dövlət olsaq da, ali rəhbərliyin siyasi iradəsi və uzaqgörənliyi ilə başladılan sülh prosesi bu gün Cənubi Qafqazda illər öncə xəyal belə edilməyən proseslərin başlanmasına rəvac verib. Vaşinqtonda imzalanan mühüm razılaşmalardan keçən qısa müddət ərzində Azərbaycan və Ermənistan arasında artıq silahlar yox, əməkdaşlıq, ticarət, qarşılıqlı səfərlər və sülh diplomatiyası danışır. Bu reallığın əsas memarı isə, sözsüz, Azərbaycan tarixinə adını qızıl hərflərlə yazdıran Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevdir.

### 30 İLLİK MÜNAQİŞƏYƏ SON QOYAN İRADƏ

Bunun məntiqi nəticəsi olaraq, Prezident İlham Əliyev dünyanın ən nüfuzlu mükafatlarından birinə - “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülüb. Azərbaycan Prezidentinin bu ali mükafata layiq görülməsinin başlıca səbəbi 30 illik münaqişənin sona çatdırılması və bölgəmizə sülhün gəlişində İlham Əliyevin yorulmaz fəaliyyəti və qətiyyətidir. Bu vurğu Prezident İlham Əliyevin Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam, “Zayed İnsan Qardaşlığı Mükafatı”nın münsiflər heyətinin üzvləri - Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişel və Afrika İttifaqı Komissiyasının sabiq sədri Musa Fakinlə görüşündə də xüsusi qeyd olunub. Onlar 2026-cı il üzrə “Zayed İnsan Qardaşlığı Mükafatı”nın Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi ilə bağlı göstərdiyi səylərə görə Prezident İlham Əliyevə təqdim olunacağını bildirərək, bu il fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə mükafatın təntənəli təqdimat mərasiminin keçiriləcəyini deyiblər.

## SÜLH, BARIŞIQ VƏ REGİONAL SABİTLİYİN BƏRQƏRAR EDİLMƏSİ

Memarı Azərbaycan Prezidenti İlham Əliyev olan sülh gündəliyinin dünyaya nümunə ola biləcəyini münsiflər heyətinin üzvləri də qeyd edirlər. “Münsiflər heyətinin adından demək istərdim ki, sülh sazişi üzrə uğurun əldə olunması üçün Zati-alinizin gördüyü işlər bizim hamımızı ruhlandırır və dünyanın müxtəlif yerlərində mövcud münaqişə bölgələri üçün sülhün möhtəşəm bir nümunəsidir. Biz və bütün dünya bunu dəyərlər baxımından yüksək qiymətləndiririk, çünki dünyanın həqiqətən buna ehtiyacı var. Həmin mükafatın Sizə təqdim edilməsi sazişin sülh, barışıq və regional sabitliyin bərqərar edilməsi baxımından əhəmiyyətini göstərir”, - deyə Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam deyib.

### ŞARL MİŞELİN ETİRAFLARI

“Zayed İnsan Qardaşlığı Mükafatı”nın münsiflər heyətinin üzvü, Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişelin də Azərbaycan və Ermənistan arasındakı sülh prosesi ilə bağlı fikirləri maraq doğurur. Sirr deyil ki, vaxtilə Azərbaycan və Ermənistan arasında sülh prosesinin əsas vasitəçilərindən biri məhz Şarl Mişel olub. Lakin bu prosesə kənar müdaxilələr və bölgədə sabitliyin əldə olunmasına yaradılan süni manеələr həmin təşəbbüsün uğurla nəticələnməməsi ilə yekunlaşdı. Bunun məntiqi nəticəsi olaraq Prezident İlham Əliyev tərəfindən irəli sürülən ikitərəfli birbaşa danışıqlar formatı qısa zaman kəsiyində öz effektlivliyini göstərdi. Nəticəsi isə məlumdur. Bu reallığı Şarl Mişelin öz dilindən eşidək: “Hesab edirəm ki, Sizin Ermənistanla birgə icra etdiyiniz sülh razılaşması dünya ölkələri üçün çox güclü bir siqnaldır.



Yəni çətinliklərə, keçmiş və indiki iztirablara baxmayaraq, gələcəyə kiçik də olsa, nikbinliklə və ümidlə baxmaq üçün ortaq iradə var. Bu da bizim təşviq və müdafiə etmək istədiyimiz dəyərlərə bağlıdır. Çünki biz hesab edirik ki, bu dəyərlər gələcəkdə daha çox təşviq olunmalıdır”.



## “MÜHARİBƏ ARTIQ YOXDUR, ƏLAVƏ QURBANLAR YOXDUR”

Azərbaycanın sülh baxışlarına dair qonaqları məlumatlandıran Prezident İlham Əliyev sülhün regional sabitlik və firavanlıq baxımından önəminə toxunub.

Deyib ki, işğal zamanı xalqımızın üzləşdiyi əziyyətlərə, verdiyi qurbanlara baxmayaraq, Azərbaycan dayanıqlı sülhün bərqərar olunması üçün güclü siyasi iradə nümayiş etdirib.

Bəli, Azərbaycanın gözləntiləri ortaya qoyulan iradə nəticəsində artıq özünü doğrultmaqdadır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, sülh şəraitində yaşamağa öyrəşirik: “Hiss edirsiniz ki, müharibə artıq yoxdur, əlavə qurbanlar yoxdur, qan artıq tökülmür. Siz xalq, ölkə və inkişaf, rifah, sabitlik üçün daha çox işlər görə bilərsiniz. Yenə də düşünürəm ki, Azərbaycan ilə Ermənistan arasında əldə olunmuş razılaşma və bu cür mötəbər şəxslərdən ibarət qrupun verdiyi qiymət həqiqətən göstərir ki, sülhə nail olmaq üçün sizdə güclü siyasi iradə lazımdır. Bunu ürəkdən arzulamalısınız. Bunu sözdə yox, əməldə etməlisiniz”.

Xatırladaq ki, “Zayed İnsan Qardaşlığı Mükafatı” Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib və mərhum Roma Papası Fransisk tərəfindən imzalanmış sənəd əsasında təsis olunub və Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsini və dəyərlərini təşviq edir. Prezident İlham Əliyevin bu mükafata layiq görülməsi, eyni zamanda, Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyibin, Roma Papası XIV Leonun və münsiflər heyətinin Azərbaycan Prezidentinin sülhün bərqərar olunması istiqamətində fəaliyyətinə verdikləri qiymətin təcəssümü kimi dəyərləndirilir. “Zayed İnsan Qardaşlığı Mükafatı”nın münsiflər heyətinin üzvlərinin ötən il dünya üzrə bütün sülh modellərinin araşdırılmasından sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin modelinin münaqişə və müharibə olan digər bölgələrdə də tətbiqi üçün gözəl nümunə olması barədə qərar qəbul ediblər.



# Azərbaycan İranda sabitliyə önəm verir

Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan İranın xarici işlər nazirinin müavini Vahid Cəlalzadəni qəbul edib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

Görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, İranda son gərginlik, eləcə də regional məsələlər müzakirə olunub. Nazir müavini V.Cəlalzadə İranda son gərginlik və hazırki vəziyyət barədə ətraflı məlumat verib.

Nazir Ceyhun Bayramov öz növbəsində İranda sabitliyə önəm verdiyimizi vurğulayıb, son hadisələr zamanı həlak olanların ailələrinə başsağlığı diləklərini çatdırıb. Azərbaycanla İran arasında dost münasibətlərin inkişafında ölkə başçıları arasında təmasların, qarşılıqlı səfərlərin, o cümlədən mövcud siyasi dialoqun vacibliyi, ümumi maraq kəsb edən məsələlərin müzakirəsinin əməkdaşlığın genişləndirilməsinə töhfə verdiyi bildirilib.



# İspaniya sülh sazişinin imzalanmasını gözləyir

"İspaniya Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasını gözləyir". "Report" xəbər verir ki, bu barədə İspaniya Deputatlar Konqresinin sədri Fransina Armenqol Sosias Milli Məclisin sədri Sahibə Qafarova ilə Bakıda keçirilən birgə mətbuat konfransında bildirib.

"İspaniya Ermənistanla Azərbaycan arasında sülh prosesinin sülh sazişinin imzalanması ilə başa çatacağına ümid edir. Azərbaycan parlamentinin sədri Sahibə Qafarova ilə görüşdə Bakı və İrəvan arasında münasibətlərin normallaşması prosesində əldə edilmiş irəliləyişə görə İspaniyanın minnətdarlığını bildirdim. Ümid edirik ki, uyğun şərait yarandıqda bu proses sülh sazişinin imzalanması ilə yekunlaşacaq", - o söyləyib.



# Sahibkarlıq sahəsində yoxlamalar daha bir il dayandırılır

Azərbaycanda sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasının müddətinin 2027-ci il yanvarın 1-nə qədər uzadılması nəzərdə tutulur. "Report" xəbər verir ki, bu, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsində öz əksini tapıb.

Sənəd Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə olunub. Qeyd edilib ki, ölkədə sahibkarlığın inkişafının stimullaşdırılması məqsədi ilə 2015-ci il noyabrın 1-dən yoxlamalar (qanunun 2.1-ci maddəsində göstərilən yoxlamalar istisna olmaqla) dayandırılıb. Təklif olunan qanun layihəsi həmin müddətin daha bir il uzadılmasını nəzərdə tutur.

# "SÜNİ İNTELLEKT ƏSASLI SƏNAYE"

**Sənaye və enerji sektorlarında süni intellektin, rəqəmsal texnologiyaların tətbiqi Azərbaycanın milli rəqəmsal iqtisadiyyat və enerji keçidi gündəliyi ilə uzlaşır. Bu istiqamətdə qabaqcıl qlobal təcrübələrin ölkəmizdə tətbiqi uzunmüddətli dayanıqlı inkişaf üçün mühüm əhəmiyyət daşıyır.**




İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) və Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Davosda Dünya İqtisadi Forumunun 56-cı illik toplantısı çərçivəsində "Texnoloji transformasiya vasitəsilə enerji keçidinin sürətləndirilməsi: Süni intellekt əsaslı sənaye" mövzusunda panel sessiya təşkil edib.

### SƏNAYE 4.0-A KEÇİDİN STRATEJİ ƏHƏMİYYƏTİ

"Report" 4SİM-ə istinadən xəbər verir ki, Mərkəzin icraçı direktoru Fariz Cəfərovun moderatorluğu ilə keçən panel sessiyada sənaye və enerji sektorlarında süni intellekt, rəqəmsal texnologiyalar və Sənaye 4.0 həllərinin tətbiqi yolu ilə karbonsuzlaşmanın sürətləndirilməsi, əməliyyat səmərəliliyinin artırılması və dayanıqlı inkişafın təmin edilməsi məsələləri barədə fikir mübadiləsi aparılıb. Müzakirələrdə karbonsuzlaşması texnoloji və iqtisadi baxımdan mürəkkəb olan sektorlar üçün Sənaye 4.0-a keçidin strateji əhəmiyyəti diqqət mərkəzində olub.

### "SOCAR İSTEHSALIN ETİBARLILIĞINA ÖNƏM VERİR"

SOCAR-ın rəqəmsallaşma üzrə baş inzibatçısı Murad Abdullayev SOCAR-ın əməliyyatlarda enerji səmərəliliyinin artırılması, istehsalın etibarlılığının və təhlükəsizliyinin yüksəldilməsinə önəm verdiyini deyib, bu məqsədlə tətbiq olunan rəqəmsal həllər barədə məlumat verib. İstehsalat sistemləri ilə informasiya texnologiyalarının səmərəli əlaqələndirilməsinin dəqiq və operativ qərarların qəbuluna imkan yaratdığı bildirilib.

### DÖVLƏT-ÖZƏL SEKTOR ƏMƏKDAŞLIĞI

Dünya İqtisadi Forumunun Müasir Texnologiyalar Mərkəzinin İnnovasiyalar Mərkəzinin Strateji təsir üzrə rəhbəri Manju George dayanıqlı enerji keçidinin təmin olunmasında dövlət-özəl sektor əməkdaşlığının, qlobal platformalarla tərəfdaşlığın əhəmiyyətini vurğulayıb. Rəqəmsal sənaye ekosistemlərinin formalaşdırılmasının inklüziv transformasiya üçün əsas şərt olduğunu qeyd edib.

"McKinsey & Company" şirkətinin Şimali Avropa regionu üzrə idarəedici tərəfdaşı Jukka Maksimainen sənayedə enerji keçidində insan kapitalının inkişafına diqqət çəkib. O, aşağı karbonlu və rəqəmsal əsaslı sənaye modellərinə keçid üçün sistemli və mərhələli yanaşmaların vacibliyi barədə məlumat verib.



### QABAQCIL QLOBAL TƏCRÜBƏLƏRİN ÖLKƏMİZDƏ TƏTBİQİ

"Honeywell" şirkətinin Qlobal regionlar üzrə prezidenti və Baş icraçı direktoru Anant Maheşaverinin xərclərin optimallaşdırılması, emissiyaların azaldılması baxımından süni intellekt əsaslı sənaye həllərinin önəmini nəzərə çatdırıb. Nəticələrə əsaslanan qərarların uğurlu transformasiyasında rolunu qeyd edib.

Sessiyanın sonunda Fariz Cəfərov sənaye və enerji sektorlarında süni intellekt və rəqəmsal texnologiyaların tətbiqinin Azərbaycanın milli rəqəmsal iqtisadiyyat və enerji keçidi gündəliyi ilə uzlaşdığını vurğulayıb. O, bu istiqamətdə beynəlxalq əməkdaşlıqların genişləndirilməsinin və qabaqcıl qlobal təcrübələrin ölkəmizdə tətbiqinin uzunmüddətli dayanıqlı inkişaf üçün mühüm əhəmiyyət daşıdığını bildirib.

# “XARİCDƏKİ SOYDAŞLARIMIZ DA DİLLƏRİNİ UNUTMAMALIDIRLAR”

**Nizami Cəfərov:** “Uşaqlar ilk növbədə Ana dilini mənimsəməli, daha sonra başqa xarici dilləri öyrənməlidirlər. Xarici dilləri öyrənəndə fikir vermək lazımdır ki, bu, Ana dilinin hesabına olmasın”.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Azərbaycan dili inkişafına görə dünya dilləri içərisində 25-ci yerdədir. Bu sıralamada dillərdə danışan xalqların sayı, ədəbiyyatın yaranması, elmin və təhsilin olması, kitab nəşri, mətbuatın olması və s. rol oynayır”. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin “Kaspi” qəzeti ilə birgə reallaşdırdığı “Məktəbdə” layihəsinin qonağı olan Atatürk Mərkəzinin rəhbəri, akademik, dilçi-alim Nizami Cəfərov şagirdlərlə söhbətində Azərbaycan dili, dövlətimizin dil siyasəti haqqında maraqlı məlumatlar verdi.

Paytaxtdakı 225 nömrəli tam orta məktəbdə keçirilən görüşdə hazırkı gənclik, onların fəaliyyəti, ortaq türk dili, dərsliklərlə bağlı məsələlərə də toxunuldu.

### “TORPAQLARIN QORUNMASI ÜÇÜN ANA DİLİMİZ DƏ MÜBARİZƏ APARIRDI”

N.Cəfərov dilimizin qorunması üçün hər bir vətəndaşın üzərinə düşən məsuliyyətdən danışdı: “Adi adamlar da bilirlər ki, Prezident İlham Əliyev Qarabağ torpaqlarını işğaldan azad etməkdən ötrü bütün dünya ilə dillə döyüşürdü. 44 gün ərzində dörd dildə bütün dünyaya müraciət etdi. Prezidentimiz dünyaya sübut edirdi ki, ermənilər bizim torpaqlarımızı işğal ediblər. Düzdür, müharibədə ordumuz, diplomatiya silahlarımız da döyüşürdü, amma Vətən torpaqlarının qorunması üçün Ana dilimiz də mübarizə aparırdı”.

N.Cəfərov dedi ki, hamımız Ana dilini əvvəlcə ailədə öyrənirik: “İndi ailələr hələ yetişməmiş uşaqlarına eyni zamanda rus, ingilis dillərini də öyrədirlər. Düzdür, valideyn heç zaman uşağının pisliyi üçün çalışmaz, amma onu nəzərə almaq lazımdır ki, uşaqlar ilk növbədə Ana dilini mənimsəməli, daha sonra başqa xarici dilləri öyrənməlidirlər. Xarici dilləri öyrənəndə fikir vermək lazımdır ki, bu, Ana dilinin hesabına olmasın. Ana dili başqa dilləri öyrənməkdən ötrü bizim üçün həmişə bir istinad nöqtəsidir. Ana dili ilə bizim təfəkkürümüz formalaşır. Məktəbdə öyrənilən Ana dili heç bir zaman möhkəmliyini itirmir. İndiki nəsil azərbaycanlılar 3 dili - dövlət dili kimi Azərbaycan dilini, region dili kimi rus dilini, beynəlxalq dil kimi ingilis dilini bilməlidirlər.”.

### “TÜRKİYƏ TÜRKCƏSİ TÜRK XALQLARI ÜÇÜN ORTAQ DİL HALINA GƏLMƏKDƏDİR”

Dilçi alim “Ortaq türk əlifbası” ilə bağlı da məlumat verdi: “Türk Dövlətləri Təşkilatı yaradılıb. Bu təşkilat müstəqil türk dövlətləri arasında mədəni, siyasi və iqtisadi münasibətləri tənzimləyir. Bu müstəqil dövlətlərdən Türkiyə, Azərbaycan, Özbəkistan və Türkmənistan latın əlifbasına keçiblər. Qazaxıstan və Qırğızıstanda da bu əlifbaya keçidlə bağlı mexanizm hazırlanıb. Dünyanın kiçik xalqları da çalışırlar ki, dilləri dünya səviyyəsinə qalxsınlar. Bizim dilimiz dünya səviyyəsinə yüksəlib, amma türk dillərinin tərkibində. Türkiyə türkcəsi də hazırda türk xalqları üçün ortaq dil halına gəlməkdədir və beynəlxalq dil olmaq iddiasındadır. Biz çalışmalıyıq ki, xaricdə yaşayan azərbaycanlılar da dillərini unutmasınlar”.

### “ORTA MƏKTƏB DƏRSLİKLƏRİNDƏ TEXNİKİ CƏHƏTLƏRƏ ÜSTÜNLÜK VERİLİR”

Akademik dərsliklərin ictimai müzakirəsi ilə bağlı mövzuya toxundu: “Mən də bir müddət orta və ali məktəblər üçün Ədəbiyyat və Azərbaycan dili dərsliklərinin yazılmasında, proqramların hazırlanmasında iştirak etmişəm. Buna görə bu işin ağırlığını bilirəm. Biz nə qədər çalışsaq da, burada zövq məsələsi var. Çox istərdim ki, orta məktəb dərsliklərini orta məktəb müəllimləri yazsınlar. Özüm də ali məktəb müəllimi kimi orta məktəb üçün dərslik yazanda “bunu orta məktəb uşaqları anlayacaqmı?” deyə daim fikirləşirdim. Ona görə də dərslikləri tez-tez dəyişməyə məcbur idik. İndi başqa bir çətinlik də var: orta məktəb dərsliklərinin yazılmasına nazirlik cavabdeh deyil. İşin strukturu elə qurulub ki, kimsə sabah “dərslikdə bu qüsur var, niyə düzəltmirsiniz” - deyə soruşsa, nazirlik onu düzəltmək səlahiyyətində deyil. Təəssüf ki, orta məktəb dərsliklərində texniki cəhətlərə üstünlük verilir. Yəni kağızı səliqəli olmalı, gözü ağrıtmamalı, şriftlər standartlara cavab verməli və s. Digər tərəfdən, dərsliklər böyük maliyyə vəsaiti hesabına başa gəldiyindən proses tenderlə idarə olunur. Tenderlərdə də məzmuna baxan olmur. Ona görə də nəşriyyatlar bu məsələdə təşəbbüsü ələ alıb. Nəticə etibarı ilə bu cür dərsliklər ortaya çıxıb. Qabaqlar isə dərslikləri komissiyalar hazırlayırdı. Amma onda da səhvlər olurdu”. N.Cəfərov hazırda dərsliklərin çox da faciəvi vəziyyətdə olmadığını da dedi: “Dərsliklərlə tanışam. Vəziyyət o qədər də bərbad deyil. Bütün dünyada belədir: dərsliklərin alternativi olmalıdır. Fikrimcə, müəllim amili dərslik amilindən üstün olmalıdır. Bu cəhətdən də geriliyimiz var”.

## “Hazırkı gənclik informasiya selinin içərisindədir”




Qonaq bugünkü gənclikdə xoşagələn və bəyənilməyən xüsusiyyətlərə də toxundu: “Hazırkı gənclik çox məlumatlıdır, informasiya selinin içərisindədir. Texnoloji imkanlardan istifadə edir, sosial şəbəkələrlə əlaqə yarada bilir. Bugünkü gənclərin bilgisayarda istənilən məlumatları almaq imkanları var, dünyaya açıqdırlar. Bu, sevindiricidir. Amma kitab oxumamaları, bədii ədəbiyyatdan uzaq olmaları, diqqəti daha çox dərsliklərə, hazırlaşdıqları ixtisaslara vermələri xoşagələn deyil. Əvvəlki dövrlərdə şagirdlər 10-11-ci siniflərə qədər bütün tədris materialını mənimsəməyə çalışırdılar. Bizim vaxtımızda repetitorluq yox idi. Uşaqlar məktəbə gedir və hər şeyi orada öyrənirdilər. Amma indi uşaqlar özləri üçün məktəbdə bir ixtisaslaşma qəbul ediblər və bu istiqamətdə gedirlər”.

Akademik test imtahanlarının da problem yaratdığını qeyd etdi: “Sən hansı fakültəyə daxil olacağını bilmirsən. Bu, istər-istəməz sonrakı təhsil üçün ciddi əngələ çevrilə bilir, əzbərçilik yaradır”.



**Fotolar:** Tapdıq Abdullayev/Global Photostock

# DE-YURE DANİMARKANIN, DE-FAKTO ABŞ-NİN

Donald Tramp Qrenlandiya ətrafındakı vəziyyətə görə bir sıra Avropa ölkələrinə qarşı planlaşdırılan yeni tariflərin tətbiqindən imtina edib. Səbəb NATO-nun Baş katibi Mark Rütte ilə keçirilən görüşdə bütün tərəfləri razı salan razılaşmanın əldə edilməsidir.



AZƏR NURİYEV



## ÇİN VƏ RUSİYAYA QARŞI QADAĞA

Donald Tramp Qrenlandiya ətrafındakı vəziyyətə görə bir sıra Avropa ölkələrinə qarşı planlaşdırılan yeni tariflərin tətbiqindən imtina edib. Səbəb NATO-nun Baş katibi Mark Rütte ilə keçirilən görüşdə bütün tərəfləri razı salan razılaşmanın əldə edilməsidir.

ABŞ ilə Avropa arasında Qrenlandiya adası ilə bağlı gərginlik səngiyib. Vaşinqtonun tələblərinə qarşı çıxan Avropa İttifaqı (Aİ) ölkələrini rüsumlarla hədələyən ABŞ Prezidenti Donald Tramp geri addım atıb. “ABŞ Qrenlandiya ətrafındakı vəziyyətə görə bir sıra Avropa ölkələrinə qarşı planlaşdırılan yeni tariflərin tətbiqindən imtina edəcək”, - deyə Donald Tramp "Truth Social" sosial şəbəkəsində yazıb. "NATO-nun Baş katibi Mark Rütte ilə keçirdiyim çox məhsuldar görüşdən sonra Qrenlandiya və əslində bütün Arktika bölgəsi ilə bağlı gələcək razılaşmanın təməlini qoyduq. Bu qərar, tətbiq olunarsa, Amerika Birləşmiş Ştatları və bütün NATO ölkələri üçün əla olacaq", - deyə o bildirib.

**RAZILAŞMANIN DETALLARI**

"The New York Times" (NYT) qəzeti əldə olunmuş razılaşmaların detallarını açıqlayıb. Bildirilir ki, ABŞ-nin Qrenlandiya ilə bağlı razılaşması Vaşinqtonun adanın kiçik əraziləri üzərində nəzarəti ələ keçirməsini özündə ehtiva edə bilər. Qeyd olunub ki, Donald Trampın 21 yanvarda gələcək razılaşmanın müəyyən edildiyini açıqlaması ərəfəsində, NATO hərbi rəsmiləri Danimarkanın ABŞ-nin Qrenlandiyanın kiçik əraziləri üzərində suverenliyini təmin edəcəyi bir kompromis ehtimalını müzakirə ediblər.

Belə ki, bu kompromis ehtimalına ABŞ-nin adada hərbi bazalar tikməsi daxildir. Adı açıqlanmayan üç rəsminin sözlərinə görə, NATO-nun Baş katibi Mark Rütte bu tip razılaşmanı dəstəklədiyini bildirib.

"The Times" qəzeti yazıb ki, Donald Tramp və Mark Rütte arasında razılaşdırılmış Qrenlandiya üzrə çərçivə sazişi adada alyansın komandanlıq mərkəzinin yaradılmasından tutmuş Rusiya və Çin investisiyalarına qadağaya qədər beş əsas komponenti əhatə edir. Nəşrin həmsöhbətlərinin məlumatına görə, Tramp və Rütte arasında müzakirə olunan razılaşma 1951-ci ildə Vaşinqton və Kopenhagen tərəfindən imzalanmış Qrenlandiyanın müdafiəsi haqqında müqavilənin yenilənməsini nəzərdə tutur. Artıq Qrenlandiyada hərbi infrastruktur yaratmaq, qoşun yerləşdirmək və idarə etmək azadlığına malik olan ABŞ öz hərbi heyəti üçün tam muxtariyyət və mütləq immunitet əldə edəcək.



Ursula fon der Lyayen

Diplomatik mənbənin sözlərinə görə, çərçivə sazişinin digər mühüm bəndləri adada NATO komanda mərkəzinin yaradılması, ABŞ-nin Qrenlandiyanın faydalı qazıntılarına çıxış əldə etməsi, Rusiya ilə Çinin adada investisiya və digər layihələr həyata keçirməsinə imkan verməyəcək müstəsna rejim barədə razılaşmadır. Nəhayət, ABŞ-yə Qrenlandiya satışa çıxarıldığı halda, onu üstünlük hüququ ilə almaq imkanı verilməsi nəzərdə tutulur.

**AVROPA LİDERLƏRİ DƏ RAZI QALIB**

Əldə olunmuş razılaşma Trampın hədələrindən sonra çıxılmaz vəziyyətə düşən Avropa dövlətləri tərəfindən də məmnunluqla qarşılanıb. Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Lyayen bəyan edib ki, Aİ-nin Qrenlandiya ilə bağlı strategiyası öz bəhrəsini verib, blok hazırda bir gün əvvəlkindən daha yaxşı vəziyyətdədir. Lyayenin sözlərinə görə, Qrenlandiya və Danimarka ilə birmənalı həmrəylik nümayiş etdirilib.

Almaniya Kansleri Fridrix Merts də Davos Forumunda çıxışı zamanı bildirib ki, NATO Danimarkanı, Qrenlandiyanı və şimal ölkələrini Rusiyanın təhdidlərindən qorumağa davam edəcək. Onun sözlərinə görə, alyans transatlantik tərəfdaşlığın fundamental prinsiplərini ardıcıl şəkildə müdafiə etmək niyyətindədir: "Biz transatlantik tərəfdaşlığın əsaslandığı prinsipləri - suverenlik və ərazi bütövlüyünü qoruyacağıq". Kansler həmçinin Danimarka, Qrenlandiya və ABŞ arasında danışıqları dəstəklədiyini bildirib.



Fridrix Merts



## TRAMPDAN AVROPA ÖLKƏLƏRİNƏ RÜSUM TƏHDİDİ

Xatırladaq ki, Qrenlandiya ilə bağlı tələbləri yerinə yetirmək istəməyən səkkiz Avropa ölkəsinə Trampın ünvanladığı ultimatuma görə, 1 fevral 2026-cı ildən etibarən Danimarka, Norveç, İsveç, Fransa, Almaniya, Böyük Britaniya, Niderland və Finlandiyadan ABŞ-yə ixrac olunan bütün mallara 10 faizlik gömrük rüsumu tətbiq edilməsi nəzərdə tutulurdu. Bundan əlavə, hazırda Aİ mallarına tətbiq olunan 15 faizlik tarif 1 iyundan etibarən 25 faizə yüksələcəkdi. ABŞ Prezidentinin iddiasına görə, Çin və Rusiya Qrenlandiya üzərində nəzarəti ələ keçirməyə çalışır.

**"YANKİLƏR, EVİNİZƏ GEDİN!"**

Maraqlıdır ki, Trampın Qrenlandiya ilə bağlı arzuları ABŞ daxilində də müqavimətlə üzləşib. Həm demokratlar, həm də respublikaçıların bir hissəsi rüsumların təkcə Aİ-yə deyil, ABŞ-yə də zərər vuracağını qeyd edirdilər. "Donald Tramp tərəfindən düşüncəsiz şəkildə tətbiq edilən rüsumlar artıq qiymətlərin artmasına səbəb olub və iqtisadiyyatımıza ziyan vurub, indi isə o, vəziyyəti yalnız pisləşdirir. Təəccüblüdür ki, o, Qrenlandiyanı ələ keçirmək üçün gerçəklikdən uzaq planı naminə ən yaxın müttəfiqlərimizə qarşı rüsumlar tətbiq etmək istəyir", - deyə Senatdakı demokratların lideri Çak Şumer bildirib.

Hətta partiya yoldaşları arasında da Trampı tənqid edənlər olub. Alyaska ştatından olan senator Liza Murkovski Avropa ölkələrinə qarşı əlavə rüsumların tətbiqi təhdidini kobud səhv adlandırıb. Ağ Ev rəhbərinin hərəkətləri qrenlandiyalılar arasında da qəzəb doğurur. Yürüş iştirakçıları plakatlar tutub, milli bayraqları yelləyib və "Qrenlandiya satılmır" şüarını səsləndiriblər. Kopenhagen küçələri "Qrenlandiyadan əl çəkin", "Yankilər, evinizə gedin!" kimi yazılı plakatlarla dolub.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# BİR MÜBAHİSƏ, ONLARLA ZƏRƏRÇƏKƏN

Sürücülərlə sərnişinlər arasında yaşanan mübahisələr ictimai nəqliyyatda tez-tez rast gəlinən hallardandır. Belə hadisələr zamanı sürücülərin avtobusu idarə etməkdən imtinası isə daha böyük problemlərə yol açır.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Keçən həftə gündəlik istifadə etdiyim 72 nömrəli avtobusda 6 yaşlı uşaq üçün ödənməyən gediş haqqına görə sürücü ilə sərnişin arasında yaranan mübahisə sonda sürücünün avtobusdan düşərək idarəetmədən imtina etməsi ilə nəticələndi. Bir gün sonra paytaxtdakı 2 nömrəli avtobusda da oxşar hadisə baş verdi: sürücü nəqliyyat vasitəsini yol kənarına verərək saxladı və sürməkdən imtina etdi...

Mediada və sosial platformalarda sürücünün bu davranışı geniş müzakirə olundu. Ard-arda baş verən bu hadisələr diqqəti yenidən sürücü-sərnişin, sürücü-şirkət münasibətlərinə yönəltdi.

## SƏBİR, ETİK NORMALARA VƏ TƏHLÜKƏSİZLİYƏ ƏMƏL ETMƏK TƏLƏB OLUNUR

Bu mövzu ilə bağlı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA) müraciət etdikdə qurumun ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Tural Orucov bizi "BakuBus" MMC-yə yönləndirdi.

"Bakubus" MMC-nin istismarında olan avtobusların sürücüləri sərnişinləri marşrut üzrə son mənzilə çatdırmaq öhdəliyini daşıyırlar və bu, onların əsas vəzifələrindən biridir", - deyə MMC-nin mətbuat katibi Əsmər Əliyeva cavabı çox yubatmadı. Eyni zamanda qeyd etdi ki, sürücülərdən hərəkət zamanı səbirli, təmkinli davranış nümayiş etdirmələri, etik normalara və təhlükəsizlik qaydalarına əməl etmələri tələb olunur.

Ə.Əliyeva vurğuladı ki, bəzi hallarda sərnişinlə insident zamanı sürücünün özünü pis hiss etməsi, emosional gərginlik yaşaması kimi hallar da baş verə bilər: "Belə vəziyyətlərdə təlimata əsasən sürücü təhlükəsizliyin təmin edilməsi məqsədilə avtobusu saxlayaraq monitorinq mərkəzinə məlumat verir və hadisə qeydə alınır. Bu kimi hallar dərhal araşdırılır, avtobusdaxili videomüşahidə kameralarının görüntülərinə baxılır və məsələ hərtərəfli qiymətləndirilir".




## "Peşəkar sürücülərin çoxu Avropaya üz tutur"

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın üzvü, nəqliyyat kommunikasiyaları üzrə ekspert Rauf Ağamirzəyev hesab edir ki, avtobus sürücüsü sükan arxasında sərnişinlərin təhlükəsiz daşınmasına görə məsuliyyət daşıyır. Amma bu sahədə sistemli problemlər var. Bakıda xeyli vaxtdır nağdsız ödənişə keçilib. Amma dünya ölkələrindən fərqli olaraq avtobusa bir qapıdan giriş edirik. Bu praktika özünü doğrultmur. Sürücünü əlavə yükləyir və tranzit vaxtına təsir edir. Üstəlik, sərnişinlərin bir-birinə anlayışlı yanaşmaması, avtobusun salonunun önündə qalmaları da əlavə vaxt aparır. Bu cür davranışlar xoşagəlməz hadisələrin yaranmasına da zəmin yaradır". İŞ üzvü hesab edir ki, sürücünün işi yalnız sükan arxasında avtobusu idarə etməkdir, onun ödənişlə bağlı öhdəliyi olmamalıdır: "Bunun üçün xüsusi nəzarətçilər təyin edilməlidir. Bizdə sərnişin və yükdaşımada sürücü qıtlığı var. Peşəkar sürücülərin çoxu Avropaya üz tutur. Sürücünün son dayanacaqda yemək, ibadət, sanitar qovşağı kimi şəraiti olmalıdır. Bu olmasa, xidmət keyfiyyəti artmayacaq. Nə qədər yaxşı avtobus gətirsək də, onu idarə edən insanın problemini həll etməsək, sərnişindaşıma riskli sahə olaraq qalacaq".




R.Ağamirzəyev hesab edir ki, belə hallarla bağlı emosiyalara qapılıb kimisə işdən çıxarmaqla problemləri həll edə bilmərik.

## "Sürücülər heç bir halda emosional davranmamalıdırlar"

"Konstitusiya" Araşdırmalar Fondunun prezidenti, hüquqşünas Əliməmməd Nuriyevin sözlərinə görə, bu cür hallar təkcə ictimai davranış problemi deyil, həm də birbaşa ictimai xidmətin hüquqi çərçivəsinin pozulmasıdır: "Marşrut avtobusu sürücünün şəxsi mülkiyyəti və ya fərdi nəqliyyat vasitəsi deyil. Sürücü bu sistemdə mütləq qərar verən tərəf yox, əmək funksiyasını yerinə yetirən icraçıdır. Bu baxımdan, sürücünün sərnişinlə mübahisəyə görə avtobusu saxlayıb sürməkdən imtina etməsi qanunsuzdur. Belə davranış nə yol-hərəkət qaydaları, nə əmək intizamı, nə də ictimai xidmətlər prinsipi ilə uzlaşır. Mübahisə edən tərəf iki nəfər ola bilər, amma nəticədə onlarla insan ziyan çəkir. Bir sərnişinin davranışı nə qədər problemli olsa belə, digər sərnişinlərin hüquqlarının qurban verilməsi hüquqla əsaslandırıla bilməz". Ə.Nuriyev bildirir ki, əgər sərnişin həqiqətən qaydanı pozursa, sürücünün dispetçerə məlumat vermək, hüquq-mühafizə orqanlarına müraciət etmək və ümumi şəkildə sərnişinin avtobusdan endirilməsini təmin etmək hüququ var: "Amma sürücünün özünü hakim kimi apararaq avtobusu hərəkətsiz saxlaması özbaşınalıqdır, eyni zamanda, onun özü üçün də məsuliyyət yaradır. Bu, daşıyıcı şirkət üçün ciddi sanksiyalarla nəticələnə bilər. O cümlədən, avtobusdakı sərnişinlər dəymiş ziyanla bağlı məhkəmədə iddia qaldıra bilərlər". Hüquqşünas bildirir ki, belə hadisələr ciddi şəkildə araşdırılmalı və nəticə çıxarılmalıdır: "Əks halda, bu cür davranışlar normaya çevrilir və ictimai nəqliyyat sisteminə etimadı sarsıdır. Hesab edirəm ki, şirkətin daşıyıcılarla bağlı fəaliyyətinə nəzarət edən AYNA da bu istiqamətdə fəaliyyətini gücləndirilməlidir".

Ə.Nuriyev hesab edir ki, əgər sərnişin həqiqətən təhqir və zoraki davranış nümayiş etdiribsə, o da məsuliyyət daşıyır: "Sərnişin etdiyi hərəkətin xarakterinə görə müvafiq məsuliyyət daşıya bilər".

Nəqliyyat eksperti Eldəniz Cəfərovun sözlərinə görə, sürücü istisna hallarda nəqliyyat vasitəsini sürməkdən imtina edə bilər. Amma bu hərəkətin qanunu əsası olmalıdır: "Avtobusda texniki nasazlıq yaranıbsa, sürücünün səhhəti qəfil pisləşibsə, yol hərəkət üçün təhlükəlidirsə, sürücü özünə və ya sərnişinlərə qarşı real təhlükə görürsə, nəqliyyat vasitəsini sürməkdən imtina edə bilər. Amma bu hallarda da sərnişinlərə aydın izahat verməli, daşıyıcı şirkət sərnişinləri alternativ avtobusla təmin etməlidir". Ekspert bildirir ki, mübahisə olarsa, sürücülər heç bir halda emosional davranmamalıdırlar: "Avtobusda qayda pozan hər hansı bir sərnişin varsa, polis çağırmaq kifayət edir. Belə problemli vəziyyətdə, situasiyadan asılı olaraq sürücü də, sərnişin də, daşıma şirkəti də günahkar ola bilər!"



# AZƏRBAYCANDA YANACAQ BALANSI DƏYİŞİR

Azərbaycanda “Aİ-95” markalı benzinin istehsalı azalır, dizel yanacağının istehsal həcmi isə artır. Rəsmi statistika yanacaq bazarında istehsal strukturunun dəyişdiyini göstərir. Ekspertlər bu prosesin iqtisadi fəallıq, logistika axınları və regional yanacaq təminatındakı boşluqlarla bağlı olduğunu bildirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Son aylarda açıqlanan rəsmi statistika Azərbaycanın yanacaq bazarında fərqli istehsal dinamikasını ortaya qoyur. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-sentyabr aylarında ölkədə 13,8 min ton “Aİ-95” markalı avtomobil benzini istehsal edilib ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 45,02 faiz azdır. Eyni zamanda, dizel yanacağı istehsalında artım müşahidə olunur. Belə ki, 2025-ci ilin yanvar-noyabr aylarında Azərbaycanda 2 milyon 329,1 min ton dizel yanacağı istehsal edilib. Bu göstərici 2024-cü ilin 11 ayı ilə müqayisədə 18,4 faiz çoxdur. Bəs bu nə ilə əlaqədardır?

**“HƏR İKİ YANACAQ NÖVÜ ÜZRƏ TƏLƏBAT SABİTDİR”**

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyev bildirib ki, hazırkı statistik göstəricilər benzinə və ya dizelə tələbatın azalması ilə izah olunmamalıdır. Onun sözlərinə görə, hazırda ölkə daxilində hər iki yanacaq növü üzrə tələbat sabitdir: “Aİ-92” markalı avtomobil benzininə aylıq tələbat 120–130 min ton civarındadır. Səyahət mövsümündə, xüsusilə yay aylarında bu göstərici 150–160 min tona qədər yüksəlir. “Aİ-95” markalı benzinə olan aylıq tələbat isə təxminən 10 min ton səviyyəsində qalır. Dizel yanacağına aylıq tələbat isə 160–180 min ton arasında dəyişir”.

Z. Vəliyevin fikrincə, məhz bu göstəricilər fonunda dizel istehsalının artırılması zəruri hesab olunur. Onun sözlərinə görə, dizeldə istehsal artımı bir neçə əsas faktorla əlaqəlidir. İşğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı tikinti və bərpa işləri dizel yanacağına tələbatı əhəmiyyətli dərəcədə artırıb. Tikinti texnikası, ağır yük maşınları və infrastruktur layihələrində istifadə olunan avadanlıqlar əsasən dizel yanacağı ilə işlədiyi üçün bu sahədə istehlak artımı qaçılmazdır.



Zəfər Vəliyev

Emin Qəribli

## “Regionu yanacaqla biz təmin edirik”

Ekspert əlavə edib ki, Rusiya-Ukrayna müharibəsi fonunda ixrac və tranzit marşrutlarında baş verən dəyişikliklər də daxili yükdaşımaların həcminə təsir göstərib: “Beynəlxalq daşımaların bir hissəsinin alternativ marşrutlara yönəlməsi ölkə daxilində logistika fəallığını artırıb. Bu isə dizel yanacağına olan tələbatın yüksəlməsinə səbəb olub. Region ölkələrində də həm benzin, həm də dizel yanacağı ilə bağlı təchizat problemləri müşahidə olunur. Rusiyanın emal zavodlarının zərbə altına düşməsi və ixrac imkanlarının məhdudlaşması Qara dəniz regionu, Mərkəzi Asiya və Cənubi Qafqazda yanacaq təminatında çətinliklər yaradıb”.

Müsahibimiz qeyd edib ki, qonşu Türkmənistan və Özbəkistanda mövcud emal gücləri daxili tələbatı tam şəkildə qarşılamaq imkanına malik deyil: “Bu vəziyyət regionda əlavə yanacaq mənbələrinə ehtiyacı artırıb. Məhz bu səbəbdən Azərbaycan bu ilin aprel ayından etibarən Asiya istiqamətində həm dizel yanacağı, həm də benzin ixracını həyata keçirir. Onun sözlərinə görə, daxili tələbat ödənildikdən sonra artıq qalan həcmlər xarici bazarlara yönəldilir. Hazırda ayda 20-25 min ton dizel yanacağı Gürcüstana, 15-20 min ton isə Qara dəniz regionuna ixrac olunur”.

## “Dizel daha sərfəlidir”

Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadiyyat kafedrasının dosenti Emin Qəribli isə məsələyə daha çox istehlak və qiymət amilləri prizmasından yanaşır. Onun sözlərinə görə, dünyada olduğu kimi Azərbaycanda da benzin nisbətən baha yanacaq növü hesab olunur və bu da alternativ enerji mənbələrinə marağı artırır: “Son illər ekoloji təmiz avtomobillərin sayının artması benzinlə işləyən avtomobillərə marağı müəyyən qədər azaldıb. Bu proses benzinə olan tələbatın azalması kimi qiymətləndirilə bilər”.

E.Qəribli dizel yanacağının artan rolunu isə onun daha qənaətli olması ilə izah edir. Onun sözlərinə görə, dizel yanacağı ilə işləyən avtomobillər və texniki avadanlıqlar yanacaq sərfiyyatına görə daha əlverişli hesab olunur: “Bu səbəbdən həm fərdi istifadəçilər, həm də təsərrüfat subyektləri dizelə üstünlük verirlər. Xüsusilə kənd təsərrüfatında dizel yanacağından geniş istifadə olunması bu sahədə tələbatın yüksək qalmasına təsir göstərir”.

İqtisadçı əlavə edib ki, dizellə işləyən avtomobillər Azərbaycanda hələ də aktiv şəkildə istifadə olunur: “Elektromobillər bazarda mövcud olsa da, onların geniş yayılması üçün infrastruktur və qiymət amilləri hələlik məhdudlaşdırıcı rol oynayır. Bu səbəbdən, əhali və biznes subyektləri ənənəvi yanacaq növlərindən, xüsusilə dizeldən istifadəni davam etdirir”.

GÜNDƏM Kaspi 24 YANVAR ŞƏNBƏ 2026 9

# PREZİDENT İLHAM ƏLİYEVİN MARAQLI VƏ ZƏNGİN DAVOS GÜNDƏLİYİ

Azərbaycan Davos Forumunda aktiv iştirak etdi. Prezident İlham Əliyevin çoxsaylı görüşləri, müxtəlif platformalarda xüsusi qonaq qismində çıxışları, sülh təşəbbüsü ideyasına qoşulması ölkəmizin dünyada artan nüfuzunun göstəricisidir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Dünyanın siyasi və iqtisadi elitasını bir araya toplayan builki Davos Forumu Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən məqamlarla yadda qaldı. Ölkəmiz Forumda Prezident İlham Əliyevin iştirakı ilə təmsil olundu. Dövlət başçısının çoxsaylı görüşləri, müxtəlif platformalarda xüsusi qonaq qismində çıxışları, ABŞ Prezidenti Donald Trampın sülh təşəbbüsü ideyasına qoşulması Azərbaycanın dünyada artan nüfuzu və beynəlxalq aktor olaraq proseslərə yön verən oyunçu kimi dəyərləndirildiyinin göstəricisidir.

**“SÜLH ŞURASININ NİZAMNAMƏSİ”NİN İMZALANMASI**

Qeyd edək ki, yanvarın 22-də Davosda “Sülh Şurasının Nizamnaməsi” (“Board of Peace Charter”) sənədinin imzalanma mərasimi keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib. Sonra Prezidenti İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları “Sülh Şurasının Nizamnaməsi” (“Board of Peace Charter”) sənədini imzalayıblar. Donald Tramp növbəti dəfə Azərbaycan Prezidentini özünün dostu adlandırıb. Bu yanaşma iki ölkə arasında münasibətlərin mövcud səviyyəsini xarakterizə edir.




## Forum çərçivəsində Donald Trampla ikitərəfli görüş

Davosda Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən məqamlardan biri də Prezident İlham Əliyevin həmkarı, ABŞ Prezidenti Donald Trampla görüşü olub.

Görüşdə Donald Trampın yenidən hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olunub.

Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu vurğulanıb.

İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlara toxunub. Artıq regionda sülhün mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bunun iki ölkə arasında ticarət münasibətlərinin yaranmasında da özünü göstərdiyini bildirib. Bu xüsusda Azərbaycandan Ermənistana neft məhsullarının ixracını, həmçinin idxal edilən taxılın ölkəmiz vasitəsilə Ermənistana çatdırıldığını vurğulayıb.

Dövlət başçısı Zəngəzur dəhlizinin, o cümlədən TRIPP layihəsinin regional bağlantılar baxımından mühüm rol oynadığını qeyd edib.



Söhbət zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasının əhəmiyyətinə toxunulub, bu qurumun Yaxın Şərqdə sülhü möhkəmləndirmək, eyni zamanda, qlobal münaqişələrin həllinə töhfə vermək baxımından önəmi qeyd edilib. Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümü kimi qiymətləndirilib.

Söhbət əsnasında dövlət başçıları ikitərəfli əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların münasibətlərimizin dərinləşdirilməsində rolunu qeyd ediblər.

## “Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi”

Davos Forumu çərçivəsində dünyanı narahat edən bir çox problemlərin aktuallığı fonunda Azərbaycan və Ermənistan arasında əldə edilmiş sülh və bu istiqamətdə atılan addımlar da böyük maraqla qarşılanıb. İqtisadi Forumun illik toplantısı çərçivəsində “Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi” mövzusunda panel iclasda Prezident İlham Əliyevə ünvanlanan sualların əksəriyyəti məhz bu mövzuya həsr edilib. Dövlət başçısı bildirib ki, ötən ilin avqustunda hər iki tərəf sülh sazişini paraflamaqla və beləliklə, üç onillikdən artıq çəkən müharibə və qan tökməyə son qoymaqla tarixi nailiyyət əldə olundu. Həmin sülh sazişinin nadirliyi ondan ibarətdir ki, o, son qanlı toqquşmadan sonra iki ildən az müddətdə paraflandı: “Beləliklə, bu göstərir ki, əgər hər iki tərəfin güclü siyasi iradəsi, sülhə sadiqliyi olarsa, onda siz kifayət qədər qısa müddət ərzində barışıq əldə edə bilərsiniz.




Paraflanmış sənəd bu gün praktiki nəticələrə çevrilir. Biz sülh şəraitində nəinki cəmi 5-6 aydır yaşayırıq və bu vəziyyətdən yararlanırıq, o cümlədən nə Ermənistan, nə Azərbaycan müstəqil ölkələr kimi heç zaman sülhdə yaşamayıblar. 1991-ci ildə müstəqil ölkəyə çevrildiyimiz zaman biz artıq hərbi toqquşmada idik. Lakin bu gün sülhün faydası əməkdaşlığın başlanmasında əks olunur. Olduqca mühüm neft məhsullarının birinci hissəsi Azərbaycandan Ermənistana göndərildi və bu, qiymətlərin aşağı düşməsinə imkan yaratdı. Beləliklə, iki və ya üç il əvvəl belə addımı tamamilə təsəvvür etmək olmazdı. Lakin bu gün o, artıq reallıqdır”.

## Bakı Avrasiyanı necə görür?

Prezident İlham Əliyev moderatorun sualına cavab olaraq, rəsmi Bakının qlobal mənzərədə Avrasiyanı necə gördünüyə dair fikirlərini də açıqlayıb. Dövlət başçısı bildirib ki, biz öz regionumuzu, bilavasitə qonşularımızı düşünürük: “Şadam ki, müstəqillik illərində biz bütün qonşularımızla çox yaxın işgüzar münasibətlər qura bilmişik. Burada istisna Ermənistandır və bunun səbəbləri hər kəsə məlumdur. Lakin de-fakto sülh bərqərar olduğu üçün biz iqtisadi əməkdaşlığa və ixrac əməliyyatlarına başlamışıq. Azərbaycan Qazaxıstandan və Rusiyadan Ermənistana yüklərin daşınması ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırıb. Bizə artıq Ermənistandan Rusiyaya yüklərin nəql edilməsi ilə bağlı müraciət daxil olub. Yəni biz de-fakto birtərəfli qaydada dəhlizləri açdıq. Bəli, bu gün bu daşımalar Gürcüstan vasitəsilə həyata keçirilir. Ancaq bir gün bu, Ermənistan ərazisindən həyata keçiriləcək. Bir gün Ermənistana məxsus yüklər birbaşa Azərbaycan vasitəsilə daşınacaq və həmin gün çox da uzaqda deyil.

Bizim üçün qardaş ölkə olan Türkiyə ilə çox sıx müttəfiqlik münasibətləri qurmuşuq, Türkiyəyə nəhəng sərmayələr yatırmışıq. Bizim Türkiyəyə sərmayələrimizin həcmi 20 milyard dollardan çoxdur. Hazırda biz Gürcüstana ən böyük sərmayə qoymuş ölkələr sırasındayıq. Gürcüstan ərazisindən keçən dəhlizlərlə yanaşı, Amerika Birləşmiş Ştatlarının himayəsi altında həyata keçirilən və TRIPP adlanan bağlantı layihəsi Xəzər dənizindən keçərək Asiyadan Azərbaycana, Ermənistana, Azərbaycanın bir parçası olan Naxçıvandan Türkiyəyə, oradan isə Avropaya qədər uzanan yeni bir nəqliyyat dəhlizi olacaqdır. Marşrutların çoxluğu istehlakçıların, təchizatçıların və tranzit ölkələrin xeyrinədir”.

**AZƏRBAYCANIN İNVESTİSİYA PRİORİTETLƏRİ**

Yanvarın 20-də “Euronews” telekanalının təşkil etdiyi “Azərbaycan rəhbərliyi ilə səhər yeməyi” adlı tədbir də böyük maraqla qarşılanıb. Prezident İlham Əliyev bu tədbirdə daha çox Azərbaycanın iqtisadi imkanları və gələcək əməkdaşlıq üçün prioritet elan etdiyi sahələri açıqlayıb. Azərbaycanın investisiya prioritetlərindən danışan dövlət başçısı qeyd edib ki, uzun illər ərzində bizim üçün əsas prioritet enerji sektoru olub. Çünki resurslarımız bizə iqtisadi nailiyyətlərimizi artırmağa və insanların həyat səviyyəsini yaxşılaşdırmağa imkan verib. Bu gün enerji layihələrinin böyük hissəsi artıq tamamlanıb: “Bəli, biz fəaliyyətimizi davam etdiririk və beynəlxalq bazarlara təqdim edəcəyimiz daha çox imkanlarımız olacaq. Lakin əsas prioritet artıq qeyri-enerji sektoru, yəni neft və qazdan kənar sahələrdir.

İqtisadiyyatın şaxələndirilməsi ölkəmiz üçün birinci prioritetdir. Praktik baxımdan bu gün biz bərpaolunan enerji sahəsinə artan marağı görürük. Artıq iki iri bərpaolunan enerji elektrik stansiyasını istismara vermişik və növbəti 6 il ərzində Günəş və külək enerjisi üzrə istehsal gücümüzü əhəmiyyətli dərəcədə artıracağıq.

Başqa sözlə, 2032-ci ilə qədər Günəş və külək enerjisi üzrə 8 giqavat güc əldə etməyi gözləyirik. Günəş və külək potensialımız çoxdur və biz böyük imkanlar görürük. Biz artıq bir neçə layihə üzrə müqavilələr bağlamışıq və hazırda enerji toplanması qurğuları barədə düşünürük. İlk yer artıq müəyyən edilib.

Biz ötürücü xətlərə investisiya qoyuluşunu gözləyirik, çünki məqsədimiz yaşıl enerjinin ixracıdır. Məlumat mərkəzlərinə gəldikdə isə hesab edirik ki, Azərbaycan sərmayədarlar üçün əsas mərkəzlərdən birinə çevrilə bilər. Birincisi, enerji ucuzdur. İkincisi, əlavə potensialımız var. Hətta bu gün istifadə etmədiyimiz və ötürmə imkanlarının məhdudluğu səbəbindən ixrac edə bilmədiyimiz 2 giqavat elektrik enerjimiz mövcuddur.

Altı il ərzində bu göstərici 8 giqavata çatacaq və regionumuzda heç bir ölkə bu qədər əlavə gücə malik deyil. Əksər ölkələr idxaldan asılıdır. Bəziləri hətta enerji çatışmazlığı ilə üzləşir. Məhz buna görə də məlumat mərkəzləri üçün maksimum səmərəliliyin əldə oluna biləcəyi yer Azərbaycandır.

Üçüncü sahə isə mədənçilikdir. Bu sahə nisbətən yenidir. Çünki nadir metallarımızın əksəriyyəti son beş və iki il ərzində Ermənistanın işğalından azad edilmiş ərazilərdə yerləşir. Hazırda ən müasir texnologiyalardan istifadə etməklə fəal tədqiqat mərhələsindəyik ki, potensialımızı dəqiq müəyyən edək. Potensialın mövcudluğu sovet dövründə aparılmış araşdırmalardan məlumdur, lakin o texnologiyalar tamamilə köhnə idi”.




## “İndi Şərq istiqamətində layihə haqqında düşünürük”

Dövlət başçısı Azərbaycanın həyata keçirdiyi enerji layihələri və tranzit təşəbbüslərlə bağlı baxışlarını da açıqlayıb. Prezident bildirib ki, geosiyasi gərginlik və mürəkkəb beynəlxalq vəziyyətə baxmayaraq, Azərbaycan bir sıra iri neft-qaz layihələrini reallaşdırmağı bacarıb. Bu layihələrin əsas istiqaməti Qərb olub: “İndi isə biz Azərbaycandan Şərq istiqamətində layihə haqqında düşünürük. Artıq burada qeyd olunduğu kimi, biz keçən il Mərkəzi Asiya Ölkələrinin Məşvərət Şurasının tamhüquqlu üzvü olduq. Bu, beş Mərkəzi Asiya ölkəsinin prezidentləri tərəfindən qəbul olunmuş Beşlik formatını Altılıq formatına çevirmək məqsədilə yekdil qərar idi. Biz bunu Azərbaycana hörmət əlaməti, göstərdiyimiz səylərin qiymətləndirilməsi kimi qəbul edirik. Həmçinin bunu müdriklik əlaməti kimi də qəbul edirik, çünki bu gün Azərbaycandan yan keçmək o deməkdir ki, siz sanksiyalar altındakı ərazilərdən keçməlisiniz. Digər iki variant da mövcuddur, lakin onların hər ikisi Azərbaycandan Şimala və Cənuba - sanksiyaların qüvvədə olduğu zonalardan keçir ki, bu da həm mal göndərənlər, həm də, ilk növbədə, alıcılar üçün rahat deyil. Beləliklə iş elə gətirib ki, Azərbaycan Avropa üçün Mərkəzi Asiya ilə bağlantı yaratmaq məqsədi daşıyan yeganə etibarlı, təhlükəsiz və xoşməramlı təyinat ölkəsidir. Bizim Avropa İttifaqının “Qlobal Qapılar” adlanan layihəsi haqqında məlumatımız var. Bu layihə Avropanı Mərkəzi Asiya ilə birləşdirəcək və əlbəttə ki, Azərbaycan burada önəmli rol oynayır. Bu vaxtadək biz əsasən öz nəqliyyat infrastrukturumuza - dəniz limanlarına, hava limanlarına, dəmir yollarına, magistrallara sərmayə yatırmağa nail olmuşuq. Beləliklə demək olar ki, hər bir şey artıq hazırdır. Lakin yüklərin həcmi o qədər sürətlə böyüyür ki, biz Dəniz Limanımızın ötürmə qabiliyyətini artırmaq qərarına gəldik”.

## Forum çərçivəsində çoxsaylı ikitərəfli görüşlər

Qeyd edək ki, forum çərçivəsində Prezident İlham Əliyevin çoxsaylı ikitərəfli görüşləri də keçirilib.

Dövlət başçısının Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosla görüşündə Azərbaycanla Avropa İttifaqı arasında bir çox sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu vurğulanıb. Prezident İlham Əliyevin israilli həmkarı İsxak Hersoqla görüşündə Azərbaycan-İsrail münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı vurğulanıb. İqtisadi, ticari, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilib. Dövlət başçısı Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə də bir araya gəlib. Söhbət zamanı ölkəmizlə AYİB arasında qurulmuş əməkdaşlıqdan məmnunluq ifadə olunub, bankın Azərbaycanda bir sıra uğurlu layihələr icra etdiyi bildirilib. Prezident İlham Əliyev Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə də görüşüb. Görüşdə regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.







Forum çərçivəsində dövlət başçısının dünyanın bir çox iri şirkətlərinin rəhbərləri ilə də görüşləri olub.

# SƏNƏD DÖVRİYYƏSİ ELEKTRONLAŞDIRILIR

Büdcə, mühasibat uçotu və dövlət satınalmaları üzrə proseslər rəqəmsallaşdırılacaq. Sənəd Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə olunub.



Azərbaycanda dövlət maliyyəsinin idarə edilməsində şəffaflıq və operativliyin artırılması məqsədilə büdcə, mühasibat uçotu və dövlət satınalmaları üzrə proseslərin rəqəmsallaşdırılması nəzərdə tutulur. "Report" xəbər verir ki, bu, "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsində öz əksini tapıb. Sənəd Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə olunub.

### "RƏQƏMSAL DÖVLƏT MALİYYƏSİ" İNFORMASİYA SİSTEMİ

Bildirilib ki, ölkə Prezidentin "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 25 avqust 2025-ci il tarixli fərmanında Maliyyə Nazirliyinin fəaliyyət istiqamətlərinə aid sahələrin, o cümlədən büdcə, vergi, gömrük, dövlət rüsumu, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üzrə dividendlərin və digər büdcə daxilolmalarının, habelə audit, mühasibat uçotu (o cümlədən dövlət maliyyə və qeyri-maliyyə aktivlərinin uçotu), dövlət maliyyə nəzarəti, dövlət xəzinədarlığı, dövlət borcu sahələrinin və maliyyə öhdəliklərinin səmərəli idarə edilməsi məqsədilə "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin yaradılması müəyyənləşdirilib.

### MALİYYƏ SƏNƏDLƏRİNİN ELEKTRON MÜBADİLƏSİ

Həmin fərmanla dövlət orqanlarının (qurumlarının), dövlət büdcəsindən maliyyə vəsaiti alan dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər təşkilatların maliyyə sənədlərinin elektron qaydada mübadiləsinin təmin edilməsi, həmçinin dövlət vəsaiti hesabına mal, iş və xidmətlərin satın alınmasının elektron müqavilələr əsasında həyata keçirilməsinin təmin edilməsi və bu müqavilələrin elektron qaydada bağlanılmasını təşkil edilməsi barədə tapşırıqlar müəyyən edilib. Qeyd olunanlardan irəli gələrək müvafiq qanun layihəsi hazırlanıb. Belə ki, "Büdcə sistemi haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən həmin qanunla müəyyən olunmuş müddətlərdə dövlət büdcəsinin və icmal büdcənin göstəricilərinin tərtibi üçün zəruri olan məlumatların büdcə təşkilatları tərəfindən müvafiq dövlət orqanına təqdim edilməsi, eləcə də dövlət büdcəsi göstəricilərinin, gəlir və xərclər bölgüsünün və digər məlumatların həmin orqan tərəfindən büdcə təşkilatlarına təqdim edilməsi "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi vasitəsilə həyata keçiriləcəkdir.

# "NAR" HƏR KƏS ÜÇÜN BƏRABƏR XİDMƏT MÜHİTİNİ GÜCLƏNDİRİR

Sosialyönümlü təşəbbüsləri ilə seçilən "Nar" "Biz Hamımız Birik" adlı yeni DEIB (Müxtəliflik, Bərabərlik, İnklüzivlik və Mənsubiyyət) strategiyası çərçivəsində bərabər və inklüziv mühitin formalaşdırılması istiqamətində fəaliyyətini genişləndirir. Strategiyanın əsas məqsədi mobil xidmətlərin əlilliyi olan şəxslər üçün daha əlçatan olmasını təmin etməkdir.

Layihə çərçivəsində "Nar"ın müştəri mərkəzlərinin əməkdaşları eşitmə məhdudiyyətli abunəçilərə jest dilində xidmət göstərməyə başlayıblar. Bu təşəbbüs müştəri mərkəzlərində ünsiyyətin keyfiyyətini artırmağa və xidmətin hər kəs üçün əlçatan olmasına töhfə verir.

Bundan əlavə, ötən ildən etibarən əlilliyi olan şəxslərin rahatlığı üçün "Nar" ofislərində növbədənkənar



xidmət təqdim olunur. Həmçinin "Elmlər Akademiyası" və "Memar Əcəmi" müştəri mərkəzləri əlil arabası istifadəçiləri üçün tam uyğunlaşdırılıb, giriş-çıxış yolları və infrastruktur bu şəxslərin rahat hərəkətini təmin edəcək şəkildə yenidən qurulub.

Qeyd edək ki, inklüziv cəmiyyətin təşviqi məqsədilə "Nar" 2021-ci ildə ilk onlayn işarə dili lüğəti olan jestdili.az saytı təqdim edib. Bu təşəbbüsün davamı olaraq, bu dili daha rahat şəkildə öyrənməyə imkan yaradan jest dili mobil tətbiqi də tezliklə istifadəyə veriləcək.



# SOCAR "Baleine" layihəsində pay alıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Kot-d'İvuarda yerləşən "Baleine" neft-qaz yatağının işlənməsi layihəsində 10% iştirak payının alınması ilə bağlı İtaliyanın "Eni S.p.A." şirkəti ilə saziş imzalayıb.

"Report" SOCAR-a istinadən xəbər verir ki, sənədi Dünya İqtisadi Forumunun 2026-cı il İllik Toplantısı çərçivəsində SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Eni S.p.A." şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi imzalayıb.

Saziş SOCAR-ın Afrika qitəsinin zəngin neft-qaz resurslarına çıxışını təmin etməklə yanaşı, şirkətin qlobal genişlənmə strategiyasına tam uyğundur, SOCAR və "Eni S.p.A" arasında enerji sənayesinin müxtəlif seqmentlərində formalaşmış daha geniş strateji əməkdaşlığın bir hissəsini təşkil edir.

Sazişin icrası və əməliyyatın yekunlaşması müvafiq tənzimləyici qurumlardan razılıqların alınmasından, eləcə də digər standart şərt və tələblərin yerinə yetirilməsindən asılıdır.

"Baleine" Qərbi Afrikada son illərdə aşkar edilmiş ən iri neft-qaz yataqlarından biri hesab olunur. Dənizdə yerləşən yataq 2021-ci ildə kəşf edilib və 2023-cü ildə hasilata başlanılıb.

Hazırda "Baleine" yatağından işlənmənin 1-ci və 2-ci mərhələləri çərçivəsində gündəlik 62 min bareldən artıq neft və 2,1 milyon kubmetrdən çox qaz hasil edilir. 3-cü mərhələnin işə salınması ilə gündəlik hasilatın 150 min barel neftə və təxminən 5,7 milyon kubmetr qaza çatdırılması nəzərdə tutulur.

"Baleine" Afrikada ilk xalis sıfır emissiyalı dəniz neft-qaz layihəsidir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 138
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

SOSİAL ŞƏBƏKƏLƏRDƏ YALANÇI YARDIM ÇAĞIRIŞLARINI NECƏ MÜƏYYƏNLƏŞDİRMƏLİ?

# MƏRHƏMƏTDƏN SUİ-İSTİFADƏ FIRILDAĞI

Sosial şəbəkələrdə xəstə uşaqlar üçün yardım çağırışlarının sayı artıb, amma bəziləri saxtadır. Ekspertlər və hüquqşünaslar vətəndaşları məlumatları yoxlamağa, rəsmi fondlara dəstək olmağa çağırırlar. Saxta paylaşımlar mərhəmət hissindən sui-istifadə edir və ciddi hüquqi məsuliyyət yaradır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son vaxtlar sosial şəbəkələrdə müalicəyə ehtiyacı olan uşaqlar üçün yardım çağırışlarının sayında artım müşahidə olunur. Bu paylaşımlar cəmiyyətdə həmrəylik və mərhəmət hissini gücləndirsə də, bəzi hallarda xeyirxahlıq duyğularının istismar edildiyi faktlar da üzə çıxır. Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, sosial şəbəkələrdə xəstə uşaqların foto və video görüntülərini paylaşaraq yardım adı altında vəsait toplamaqda şübhəli bilinən 30 yaşlı Rəsul Həsənov saxlanılıb. Araşdırmalar zamanı müəyyən edilib ki, o, müxtəlif səhifələr vasitəsilə vətəndaşları emosional mətn və görüntülərlə təsirləndirərək bank kartlarına ianələr köçürülməsinə nail olub. Toplanan pul isə ehtiyac sahiblərinə deyil, şəxsi məqsədlərə yönəldilib. Bu fakt bir daha sosial şəbəkələrdə yayılan yardım çağırışlarının nə dərəcədə etibarlı olması barədə müzakirələri aktuallaşdırıb. Bu çağırışların doğru olduğunu necə müəyyənləşdirməliyik?

### "İNTERNET VƏ TEXNOLOGİYA İNKİŞAF ETDİKCƏ BU TİP TƏHLÜKƏLƏRİN SAYI ARTIR"

Milli Məclisin deputatı Vüqar İskəndərovun sözlərinə görə, sosial şəbəkələrdə köməyə ehtiyacı olan insanları paylaşaraq vətəndaşların duyğuları ilə oynanılması halları artmaqdadır. O bildirib ki, insanlara kömək etmək, yardım göstərmək gözəl haldır və bu, sosial məsuliyyətdir: "Hər birimiz birlik və həmrəylik nümayiş etdirməliyik. Amma bu kimi risklər də qaçılmazdır. İnternet və texnologiya inkişaf etdikcə bu tip təhlükələrin sayı artır. Xüsusilə sadə insanlar hansı məlumatların doğru, hansının yalan olduğunu fərqləndirə bilmirlər". Deputatın fikrincə, bu cür hallardan qorunmağın yolu maarifləndirmədən keçir.



Vüqar İskəndərov

V.İskəndərov qeyd edib ki, vətəndaşlar kömək etmək istədikdə bir neçə məqama diqqət etməlidirlər: "Müraciət edən şəxs müəyyən olunmalı, onun haqqında ətraflı məlumat əldə edilməlidir. Həqiqətən həmin ünvanda yaşayırmı? Həqiqətən yardım istədiyi şəxsin köməyə ehtiyacı varmı? Yalnız araşdırdıqdan sonra addım atmaq lazımdır".

Deputatın sözlərinə görə, burada ictimai qınaq da olmalıdır: "Eyni zamanda hüquq-mühafizə orqanlarına müraciət edilməlidir".



### "İNSANLARI NECƏ ƏLƏ ALMAQ LAZIM OLDUĞUNU YAXŞI BİLİRLƏR"

"Güvən" xeyriyyə təşkilatının təsisçisi Nigar Bayramlı bildirib ki, bu kimi dələduzluq halları əvvəlki dövrlərdə də mövcud olub: "Sadəcə son dövrlərdə onların sayı kifayət qədər artıb. Belə şəxslər həm köməyə ehtiyacı olan insanlara mane olur, həm də xeyriyyə işi ilə məşğul olan təşkilatlara ciddi təsir göstərirlər". N.Bayramlı qeyd edib ki, onların paylaşdığı bir çox xeyriyyə çağırışları fırıldaqçılar tərəfindən götürülərək öz səhifələrində paylaşılır. N.Bayramlı bildirib ki, rəhbərlik etdiyi təşkilat əsasən bölgələrdə xeyriyyəçilik fəaliyyəti ilə məşğuldur: "Bu səbəbdən də bölgələrin icra hakimiyyətləri və ictimai birliklərlə əməkdaşlıq edirlər. Köməyə ehtiyacı olan şəxslər bu şəkildə müəyyənləşdirilir". N.Bayramlının sözlərinə görə, bəzən sosial şəbəkələrdə xəstə uşaqların ağır musiqi fonunda, yalvarış üslubunda paylaşıldığı müşahidə edilir. Bunların hamısı vizual manipulyasiyadır. Fırıldaqçılar insanları necə ələ almaq lazım olduğunu yaxşı bilirlər.

### BEŞ İLDƏN 10 İLƏ QƏDƏR HƏBS

Hüquqşünas Ceyhun Cəfərlinin sözlərinə görə, fırıldaqçılıqla məşğul olan şəxslər dələduzluq maddəsi ilə 10 ilə qədər həbs oluna bilərlər: "Dələduzluq yolu ilə əldə edilən vəsait külli miqdardırsa, yəni məbləğ 50 min manatdan 500 min manatadəkdirsə, buna görə müəyyən olunan cəza 5 ildən 10 ilə qədərdir". C.Cəfərli hesab edir ki, belə halların qarşısının alınması üçün bu kimi dələduzluq hallarına baş vuran şəxslər ciddi şəkildə cəzalanmalıdır: "İnsanların duyğularının istismar edilməsi həm cəmiyyət, həm də dövlət tərəfindən qınanılmalıdır. Həm insanlar, həm məhkəmə sistemi belə dələduzlara qarşı barışmaz mövqedə olmalıdır. Çünki bu kimi yardımlar nə qədər köməyə ehtiyacı olan şəxsləri xilas edə bilər. O səbəbdən insanların mərhəmət duyğusu istismar edilməməlidir. Artıq süni intellekt vasitəsilə də görüntü yaradaraq insanları aldada bilirlər. Belə halları gördükcə insanlarda şübhələr formalaşır. Artıq həqiqi ehtiyacı olan insanlara da kömək etmək istəmirlər".



Ceyhun Cəfərli

## "POLİS TƏRƏFİNDƏN MÜTƏMADİ TƏDBİRLƏR HƏYATA KEÇİRİLİR"

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin əməkdaşı Elbrus İbrahimov bildirdi ki, son dövrlər sosial şəbəkələrdə "körpələrə yardım", "fiziki qüsurlu uşaqlara ianə", "təcili əməliyyat üçün pul lazımdır" tipli çağırışlara rast gəlinir. Amma əksər hallarda həmin paylaşımlar insanların hisslərini manipulyasiya edərək dələduzluq yolu ilə pul qazanmağa hesablanır: "Bu cür hallar həm çaşqınlıq yaradır, həm də real ehtiyacı olan şəxslərə yardım etmək istəyən vətəndaşların tərəddüd etməsinə səbəb olur. Belə hüquqazidd əməllərin yol



Elbrus İbrahimov

verildiyi səhifələrə qarşı isə polis əməkdaşları tərəfindən mütəmadi olaraq əməliyyat-texniki tədbirlər həyata keçirilir. Vətəndaşlara təsdiqlənməmiş bank hesablarına və ya qeyri-müəyyən mənbələrə vəsait köçürmədən əvvəl məlumatları diqqətlə yoxlamağı, rəsmi və etibarlı yardım mexanizmlərinə üstünlük vermələrini tövsiyə edirik".

# MƏNTİQLİ SEÇİMDİR, LAKİN "ƏMMA"SI DA ÇOXDUR

**Elm və Təhsil Nazirliyi uşaq sayı az olan ucqar kənd məktəblərinin bağlanması, şagirdlərinin onlayn təhsilə cəlb edilməsi ilə bağlı pilot layihə icra etməyə hazırlaşır. Amma bu layihə ilə bağlı fikirlər birmənalı deyil.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Uşaq sayı az olan uçqar kənd məktəblərinin bağlanması, şagirdlərinin onlayn təhsilə cəlb edilməsi ilə bağlı çoxdan səslənən fikirlər reallığa çevrilməyə yaxındır. Elm və təhsil naziri Emin Əmrullayevin bu yaxınlarda bununla bağlı verdiyi açıqlama keçidin başlanğıcına doğru addım sayıla bilər: "Bizim elə bölgələrimiz var ki, orada adambaşına bir şagird üzrə düşən xərc Bakının mərkəzindəki özəl məktəblərin təhsil haqqından daha yuxarıdır. Belə kənd məktəblərinin sayı 10 deyil, yüzlərlədir". Nazir kiçik məktəblərdə ciddi keyfiyyət probleminin mövcudluğunu, orada işləyən heyətin sayının şagirdlərin sayından iki dəfə çox olduğunu da vurğulayıb. Onun sözlərinə görə, növbəti sentyabr ayından şagird sayı az olan məktəblərdə distant təhsilə keçilməsi planlaşdırılır və bu, pilot layihə kimi həyata keçiriləcək.

Ancaq bu keçid təbii ki, çox ağrılı ola bilər. Bu model uşaqların sosiallaşmasını əngəlləməyəcəkmi? Bağlanacaq məktəblərdə təhsil alan bütün uşaqların texnoloji alətlərə çıxışları əlçatan olacaqmı? Bu keçid valideynlərin övladlarının təhsili naminə kənddən şəhərə yeni köçünə rəvac verməyəcəkmi?

Mövzu ilə bağlı təhsil sahəsində çalışanların fikirləri də birmənalı deyil.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təlim-tədris mərkəzinin müdiri Xalidə Həmidovanın sözlərinə görə, həqiqətən ucqar yerlərdə bir və ya iki şagirdin oxuduğu məktəblər var: "Ailələrin şəhərə köç etməsi, kəndlərdə uşaqların az olması bu məsələdə rol oynayır. Belə məktəbin saxlanması da maliyyə baxımından çətin məsələdir. Yəqin ki, nazirlik alternativ modellər fikirləşir. Məsələn, qonşu Gürcüstanda avtobus ucqar kəndlərdən uşaqları yığıb bir məktəbə gətirir, sonra da aparıb valideynlərinə təhvil verir".

X.Həmidova bildirir ki, onlayn təhsilə keçilməsi ilə bağlı qanunvericilikdə də dəyişiklik edilməlidir: "Hələ ki, bizdə onlayn təhsil forması yoxdur. Bu, qanunvericilikdə təsbit olunmalıdır. Kənd yerlərində texnoloji avadanlıqlar əlçatan deyil, internetlə bağlı da problemlər var. Biz bunu pandemiya dövründə müşahidə etdik".

## "O UŞAQLAR SOSİALLAŞMAQDA ÇƏTİNLİK ÇƏKƏCƏKLƏR"

Xaçmaz rayon Çarxı kənd tam orta ümumtəhsil məktəbin alman dili müəllimi Tavat İsgəndərova hesab edir ki, ucqar və şagird sayı az olan məktəblərdə onlayn tədrisə keçilməsi, qismən də olsa, müəllim çatışmazlığının qarşısını almış olacaq: "Uşaqlar daha keyfiyyətli tədris görməklə yanaşı, həm də ucqar kəndlərdə təmirsiz məktəblərdə oturmaq məcburiyyətində qalmayacaqlar. Eyni zamanda, fənlərin davamlılığı təmin olunar və şagirdlər bütün fənlərdən ixtisaslaşmış müəllimlərdən dərs almış olarlar".

Amma müsahibimiz təklif olunan modelin mənfi tərəfinin olacağını da istisna etmir: "O uşaqlar sosiallaşmaqda və yeni dostlar qazanmaqda çətinlik çəkəcəklər. Pilot layihə kimi tətbiq olunması isə mümkün çətinlikləri öncədən müəyyənləşdirmək baxımından çox yaxşıdır".



Tavat İsgəndərova

## "YOLDA 2-3 SAAT VAXT İTİRMƏKDƏNSƏ..."

"Sinif otağında, əyani şəkildə olan dərslərin yerini heç bir şey verə bilməz", - deyən Astara rayonu Deqədi kənd ümumi orta məktəbin informatika müəllimi Nemət Tarverdiyevin məsələyə münasibəti də birmənalı deyil. Onun sözlərinə görə, ucqar yerlərdə uşaqların məktəbə gəlməsi üçün bəzən 2-3 saat vaxt lazım olur: "Bəlkə də o vaxtı itirməkdənsə, onlayn dərs daha yaxşıdır. Bu gün ölkədə internet məsələsi demək olar ki, həll olunub. Amma uşaqlar kompüter, nootbukla təmin olunmalıdırlar ki, bu dərslərə qoşula bilsinlər. Onsuz da biz əyani dərsləri keçəndə də bir çox materialların axtarışını, tapşırıqları şagirdlərə internet üzərindən veririk".

Müəllim hesab edir ki, bu ideyanın uğur qazanmasında valideyn məsuliyyəti əsas olacaq: "Uşaq evdə onlayn oxuyanda valideynin üzərinə daha çox məsuliyyət düşəcək. Yaxşı olar ki, belə layihələrin nəzərdə tutulduğu kəndlərdə qabaqcadan valideynlərə də təlimlər keçirilsin. Valideynlər uşaqlara istiqamət verməklə yanaşı, onlara nəzarəti gücləndirməlidirlər".

Fransız dili müəllimi Gülnar Əliyevanın fikrincə, onlayn dərslərin müsbət və mənfi tərəfləri var: "Artıq bütün evlərdə internet mövcuddur, texnoloji avadanlığa əlçatanlıq var. Onlayn dərslər bəzən əyani dərslərdən daha yaxşı effekt verir. Uşaqlar məktəbdə daha çox nadincdir, dərsi pozmağa meyillidirlər. Onlayn dərsdə bu, mümkün deyil. Sadəcə, uşaqların sosiallaşması bir az çətin ola bilər".



Nemət Tarverdiyev

## "BƏS BAĞLANACAQ MƏKTƏBLƏRİN MÜƏLLİMLƏRİ NEYLƏYƏCƏKLƏR?"



Qoşqar Məhərrəmov

ABŞ-də çalışan təhsil üzrə ekspert Qoşqar Məhərrəmovun fikrincə, şagird sayı çox az olan uzaq kənd məktəblərinin distant təhsilə keçməsi maddi resursların rentabelli istifadəsi baxımından məntiqli görünür: "Ancaq burada təhsilin keyfiyyətinə də diqqət edilməlidir. Həmin yerlərdə uşaqlara keyfiyyətli təhsil, sürətli internet, lazımi avadanlıq təklif edə biləcəyikmi?" Ekspertin fikrincə, ucqarlarda yaşayan uşaqlara dərs keçmək üçün müxtəlif modellər mövcuddur ki, onlardan biri onlayn, digəri daşımalı təhsildir: "Onlayn təhsil bəlkə də məktəbin savad vermək funksiyasını yerinə yetirə bilər, bütün funksiyalarını icra etməsi isə mümkünsüzdür. İnternetin sürəti normal olsa, şagirdləri kompüterlə təmin edə bilsək, müəllimlər dərsləri onlayn formada keçə bilərlər. Amma biz o uşaqlara sosial mühit verə, dost mühiti təmin edə bilmərik. Bəs bağlanacaq məktəblərin müəllimləri neyləyəcəklər? Mənə elə gəlir ki, bizim o kəndlərə onlayn təhsildənsə, daşımalı təhsili aparmağımız daha düzgün olar".

Q.Məhərrəmov ucqar kəndlərdəki şagirdləri yaxın kəndlərə daşıyıb, ən azı 9-cu sinfə qədər icbari təhsillə təmin etməyin tərəfdarıdır.

BƏZİ RESTORANLAR “DƏVƏ QUTABI” ADI İLƏ MÜŞTƏRİLƏRİNİ ALDADIR

# MENYUDA DƏVƏ, QUTABDA...



Müvafiq qurum tərəfindən aparılan yoxlamalar zamanı bir çox restoranlarda dəvə qutabı kimi təqdim edilən qidaların əslində eyniadlı məhsul olmadığı aşkarlanıb. Nəticədə bir çox restoran artıq menyularından dəvə qutabını çıxarıb.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

“Dəvə qutabı” Abşeron mətbəxinin ən məşhur təamlarından sayılır. Elə bu səbəbdəndir ki, son vaxtlar menyusuna dəvə qutabını daxil edən restoranların sayı artmaqda idi. Lakin qutabın həqiqətən dəvə ətindən hazırlanması tez-tez müzakirə mövzusu olub. Hətta ötən il 25 ildir dəvə saxlayan Maştağa sakini Firdovsi Axundov mətbuata açıqlamasında “restoran var ki, ildə bir dəfə dəvə əti alıb aparır, amma ilin bütün fəsillərində dəvə qutabı satır”, - deyə bildirmişdi.

Ötən həftələrdə də müğənni Üzeyir Mehdizadə bildirdi ki, dəvə qutabı yemək üçün restorana gedib, amma ona adi ət qutabı verilib: “Mənə dedilər, adını dəvə qutabı qoymuşuq ki, gəlib yeyəsiniz. Yəqin ki, dəvə qutabı var, amma mən yeməmişəm”.

### “DƏVƏ QUTABI DƏVƏ ƏTİNDƏN HAZIRLANMAYIB”

Məsələ AQTA-nın da diqqətindən yayınmayıb. Agentliyin əməkdaşları Sumqayıt şəhəri, Sahil küçəsində fəaliyyət göstərən bir sıra ictimai iaşə obyektlərində növbəti reydlər aparıb. Yoxlama zamanı “Dostluq” restoranında ətlərin mənşəyini və təhlükəsizliyini təsdiq edən sənədlərin mövcud olmadığı aşkarlanıb. Həmçinin “Santo Mare”, “Duyğu”, “Şərur”, “Regnum” və “Oregano” restoranlarının menyularından “dəvə qutabı”nın çıxarıldığı və artıq bu xidmətin göstərilmədiyi müəyyən edilib. “Antalya” restoranında isə hazırda dəvə ətinin olmadığı, əvvəlki dövrlərdə qəbul edilmiş dəvə ətinə dair müvafiq baytarlıq-müşayiətedici sənədlərin mövcud olduğu məlum olub. Agentlik tərəfindən aparılan təhlillər və statistik rəqəmlər dəvə kəsimi həcminin “dəvə qutabı” adı ilə təqdim olunan məhsulların satış dövriyyəsi ilə uyğunsuzluq təşkil etdiyini göstərir. Yəni, yoxlamalar zamanı müəyyən edilib ki, təqdim olunan qutablar əslində dəvə ətindən deyil, digər növ ət məhsullarından hazırlanıb.

### DƏVƏ ƏTİ İLƏ MAL ƏTİNİN FƏRQİ NƏDİR?

Maraqlıdır, dəvə ətinin digər növ ət məhsullarından fərqi nədir?

Dəvə ətinin spesifik xüsusiyyətlərindən biri onun dadının şirin olmasıdır. Məhz bu səbəbdən iddia edilir ki, mal ətinə şəkər qatılıb dəvə əti kimi təqdim edilir.

Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun Elmi-tədqiqat və risklərin qiymətləndirilməsi departamentinin Heyvan sağlamlığı şöbəsinin mütəxəssislərinin açıqladığı məlumata görə, dəvə ətinin tərkibi 66-79% su, 20-23% protein, 3.5-4.0% yağ, azotsuz ekstraktiv maddələr və digər bioloji aktiv maddələrdən təşkil olunub. Dəvə əti qidalılıq dəyərinə görə mal ətinə yaxın olsa da, tərkibində yağların, xüsusilə xolesterolun miqdarının nisbətən az olması ilə fərqlənir ki, bu da onun müsbət bioloji xüsusiyyəti kimi qiymətləndirilə bilər. Ətin konsistensiyası möhkəm və şirəli, rəngi tünd qırmızı və ya qəhvəyi-qırmızı çalarlı olub, pH dəyəri 5.7-6.0 arasında dəyişir.

### “İSTEHSALÇIDAN BAYTARLIQ ŞƏHADƏTNAMƏSİ TƏLƏB EDİLMƏLİDİR”

Qida eksperti Seymur Qafarov deyir ki, ictimai iaşə müəssisələrində əyləşən hər bir istehlakçının hüququdur ki, dəvə qutabı adı ilə təqdim olunan məhsulun həqiqətən də dəvə ətindən hazırlanıb-hazırlanmamasını öyrənsin: “Qanunun tələblərinə uyğun olaraq, heç bir istehsalçı istehlakçını aldatmamalıdır. Ət məhsullarının mənşəyi dəqiq şəkildə təqdim edilməlidir. Həmçinin müəssisələr məhsulun qəbulu zamanı baytarlıq şəhadətnamələri və arayışları əldə etməli, burada heyvanın mənşəyi və laborator analiz nəticələri, təhlükəsizlik parametrləri əks olunmalıdır. İstehlakçının hüququdur ki, dəvə qutabı adı ilə təqdim olunan məhsulun həqiqiliyini tələb etsin. Bunun üçün mütləq satışını həyata keçirən istehsalçıdan və ya müəssisədən baytarlıq şəhadətnaməsini tələb etməlidir. Bu sənəd vasitəsilə ətin mənşəyi haqqında dəqiq məlumat əldə etmək mümkündür”.


Seymur Qafarov

Mütəxəssis vurğulayır ki, ölkəmizdə dəvə əti bazarı çox geniş deyil. Buna görə də vətəndaşların diqqətsizliyi bəzi müəssisələrin məhsulu dəvə əti adı altında satmasına səbəb olur: “Bu halların qarşısını almaq üçün paketlənmiş dəvə ətləri mütləq etiket məlumatları ilə təqdim edilməlidir. İstehlakçılar bu etiket məlumatlarını diqqətlə yoxlamalıdırlar”.

### SAĞLAMLIQ ÜÇÜN TƏHLÜKƏ MİNİMALDIR, AMMA...

Mütəxəssisin sözlərinə görə, əgər menyuda dəvə qutabı qeyd edilib, lakin ətin mənşəyi fərqlidirsə, bu, qida təhlükəsizliyi baxımından birbaşa risk yaratmır: “Belə ki, ət 75°C temperaturda ən azı iki dəqiqə bişdikdə, onun tərkibində ola biləcək bakteriya və digər çirklənmə riskləri aradan qalxır. Bu baxımdan, istehlakçı sağlamlığı üçün təhlükə minimaldır. Lakin bu vəziyyət qida saxtakarlığı kimi qiymətləndirilir və istehlakçının hüquqları pozulur. Bu, qida məhsulunun etik və qanuni tələblərə uyğun təqdim edilməməsi halıdır və ciddi hüquqi məsuliyyət daşıyır”.

### “MAL ƏTİNİN RƏNGİ AÇIQ, DƏVƏ ƏTİ TÜND OLUR”

Həmsöhbətimizin ictimai iaşə obyektlərində dəvə qutabını digərlərindən fərqləndirməyin yollarını da bölüşdü: “İstehlakçıların diqqət yetirməli olduğu əsas məqamlar bunlardır: əgər ətin özündə dəvə ətinə xas yağlılıq, spesifik rəng və bişdikdən sonra açıq rəng alma xüsusiyyəti yoxdursa və ya dəvəyə xas qoxu hiss olunmursa, bu, həmin ətin mal əti olduğunu göstərir. Bişmiş qutabın ətini laborator və fizioloji göstəricilərinə görə ayırd etmək mümkündür. Bişdikdən sonra ətin rəngi və qoxusu əsas indikatorlardır. Çiy halda isə ətlərin görüntüsü fərqlidir. Mal əti daha açıq çəhrayı, dəvə əti isə tünd rəngdə olur. Bişdikdən sonra isə dəvə əti açıq rəng alır. Bundan əlavə, ətin yağlılığı da fərqləndirici göstəricidir. İstehlakçı mal ətinə nisbətən dəvə ətinə xas olan yağlılıq və digər xüsusiyyətləri hiss edə bilər. Bu göstəricilər, həm vizual, həm də hissiyyatla məhsulun mənşəyini təyin etməkdə yardımçı olur”.

# ƏSGƏRAN DÖYÜŞLƏRİNİN QƏHRƏMANI

**General-mayor Həbib bəy Səlimovun ölkə qarşısındakı xidmətlərindən biri də 1920-ci ilin mart-aprel aylarında uğurla həyata keçirdiyi Qarabağ əməliyyatıdır. Həmin əməliyyatda erməni-daşnak silahlı birləşmələrinə ağır zərbə endirilib.**

**RAFİQ SƏFƏROV**

Azərbaycanın hərb tarixinə düşmüş görkəmli sərkərdələrdən biri də general-mayor Həbib bəy Səlimovdur. O, 1881-ci il fevralın 8-də Azərbaycanın qədim torpaqlarından sayılan İrəvanda anadan olub. Orduda xidməti 1900-cu ilin avqust ayından başlayıb. H.Səlimov həmin tarixdə 156-cı Yelizavetpol süvari alayına könüllü yazılaraq orada 14 ay xidmət etdikdən sonra unter-zabit rütbəsini əldə edib. 1902-ci ildə Tiflis şəhərində süvari məktəbini bitirib və sonra üçüncü Qafqaz Atıcı Batalyonunda xidmət etməyə başlayıb. Burada podporuçik rütbəsində xidmət edib. O vaxtkı podporuçik rütbəsi hazırkı leytenant rütbəsinə uyğun gəlir.

### MƏXFİ TAPŞIRIQLARLA TEHRANA GÖNDƏRİLİR

Həbib bəy 1905-ci ildə batalyon komandirinin yavəri, 1907-ci ildə isə elə həmin hərbi hissədə üçüncü rotanın komandiri təyin edilir. Həmin ilin sentyabrında hərbi xidmətinə görə Müqəddəs Vladimir ordeni ilə təltif edilib. 1908-1910-cu illərdə Beşinci Qafqaz Atıcı Batalyonunun tərkibində Naxçıvan-Culfa sərhədində xidmət edib və məxfi tapşırıqlarla Tehrana göndərilib. 1912-ci ildə kapitan rütbəsini əldə edib, daha sonra Peterburq şəhərində Baş Qərargahın Nikolayev Hərbi Akademiyasını bitirib.

### ORDU QURUCULUĞUNDA FƏAL İŞTİRAK EDİB

Arxiv sənədləri təsdiq edir ki, 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik dövlət sayılan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) elanından sonra ordu quruculuğunda fəal iştirak etmiş hərbçilərdən biri də məhz Azərbaycan Ordusunun Baş Qərargahının general-mayoru, Baş ştabın Baş İdarəsinin, eləcə də Bakı istehkam rayonunun rəisi H.Səlimov olub. Cümhuriyyət dövründə Azərbaycanda ordu quruculuğunda yaxından iştirak etmiş Həbib bəyin imzaladığı ilk sənədlərdən biri 7 noyabr 1918-ci il tarixə aiddir.

### MEHMANDAROV VƏ ŞIXLİNSKİNİN YAXIN SİLAHDAŞI

Belə ki, həmin tarixdə artilleriya generalı Səməd bəy Mehmandarov 1 saylı əmr imzalayaraq özünün hərbi nazirin müavini təyin edilməsi haqqında məlumatı elan edir. Həmin sənəd S.Mehmandarovla yanaşı, Azərbaycan Ordusunun Baş Qərargahının rəisi Həbib bəy Səlimov tərəfindən də imzalanıb. S.Mehmandarov 25 noyabr 1918-ci il tarixdə Gəncə şəhərindən hökumət rəhbəri Fətəli Xan Xoyskiyə raport göndərərək Əliağa Şıxlinskinin hərbi nazirin ikinci müavini təyin edilməsini xahiş edir. Həmin raport da S.Mehmandarovla yanaşı, H.Səlimov tərəfindən imzalanıb.

1918-ci il noyabrın 1-də AXC hökuməti nəzdində Hərbi Nazirliyin yaradılması haqqında qərar qəbul edilib. Həmin qərarda qeyd edilirdi ki, hərbi nazir portfeli Nazirlər Şurasının sədrinə həvalə edilsin, onun müavini isə S.Mehmandarov təyin edilsin. Daha sonra isə qısa müddət ərzində Hərbi Nazirliyin aparatı yaradıldı. Noyabrın 15-də S.Mehmandarovun müvafiq əmri əsasında Ordunun Baş Qərargahı və dəftərxanası təsis edildi. Arxiv materialları təsdiq edir ki, H.Səlimov ordu quruculuğunda S.Mehmandarov və Ə.Şıxlinski ilə yanaşı yaxından iştirak edib. Məsələn, qoşunlarını kiçik tibbi personalla təmin edilməsi məqsədi ilə Gəncə hərbi xəstəxanasının nəzdində feldşer məktəbinin yaradılması haqqında əmri S.Mehmandarov və H.Səlimov imzalayıblar. Daha sonra 23 yanvar 1919-cu ildə polk məhkəmələrinin yaradılması haqqında növbəti əmr imzalanır. Yaradılacaq məhkəmələr ilk iclaslarını 1919-cu il 15 fevral tarixindən gec olmayaraq keçirməli idilər. Əgər hər hansı bir çətinlik ortaya çıxardısa, Hərbi Nazirliyin hərbi-məhkəmə şöbəsinə müraciət olunması tövsiyə edilirdi.





## AXC dövründə hərbi nazir vəzifəsini də icra edib

11 fevral 1919-cu ildə H.Səlimovun da imzası ilə Gəncə şəhərində ağır artilleriya divizionu yaradılıb. Beş gün sonra imzalanan digər əmrə uyğun olaraq furajkalar yeni baş geyimi sayılan papaqlarla əvəz edilib. H.Səlimovun imzaladığı 14 iyul 1919-cu il tarixli 328 əmrlə beş piyada polkundan ibarət iki piyada diviziyası da yaradılıb.

1919-cu ildə Ağdamda səpmə yatalaq epidemiyası geniş yayılmışdı. Həmin il fevralın 21-də I piyada diviziyasının rəisi general-mayor Süleyman bəy Əfəndiyevin səpmə yatalaq xəstəliyinə yoluxaraq vəfat etməsi barədə məlumat daxil olur. Həmin dövrdə bu epidemiyaya qarşı mübarizə aparılması üçün hərbi nazir vəzifəsini icra edən Ə.Şıxlinski və Baş ştabının rəisi H.Səlimovun Gəncə şəhərində imzaladıqları əmrlə Ağdama əlavə tibbi heyət göndərilir. Arxiv sənədləri təsdiq edir ki, H.Səlimov AXC dövründə müvəqqəti olaraq hərbi nazir vəzifəsini də icra edib. İctimai yerlərdə hərbi xidmətçilərin davranış qaydalarına dəyişikliklərin edilməsi haqqında 7 mart 1920-ci il tarixli əmr də məhz hərbi nazir vəzifəsini müvəqqəti icra edən H.Səlimov tərəfindən imzalanıb.

### ERMƏNİ-DAŞNAK BİRLƏŞMƏLƏRİNƏ AĞIR ZƏRBƏLƏR ENDİRİB

Xatırladaq ki, AXC dövründə H.Səlimov general-mayor rütbəsi ilə təltif olunub. Bu barədə əmri nazir S.Mehmandarov 1919-cu ilin 26 fevralında imzalayıb. H.Səlimov 1920-ci ilin martında Əsgəran döyüşlərinin qəhrəmanı kimi də ad-san qazanıb. Onun ölkə qarşısındakı xidmətlərindən biri də 1920-ci ilin mart-aprel aylarında uğurla həyata keçirdiyi Qarabağ əməliyyatıdır. Həmin əməliyyatda dövlətə xəyanət etmiş, silahlı qiyam qaldırmış azğın erməni-daşnak silahlı birləşmələrinə ağır zərbə endirilib. Onlar məğlubiyyətə düçar olub və bölgədə Azərbaycanın suveren hüquqları bərpa edilib.

# PORTUQALİYA SİMVOLUNUN VƏTƏNİ

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bu gün parlaq rənglərlə bəzənmiş Barseluş xoruzu məşhur Portuqaliya sənət əsərlərindən biri sayılır. Əl işləri, bazar köşkləri, meydanlar, karusellər onun şəkilləri ilə bəzədilib.

Portuqaliyanın Barseluş şəhəri tarix, mədəniyyət baxımından zəngin və cazibədar yerdir. Şəhər romalılar tərəfindən salınıb. Sonradan məşhur Portuqaliya əfsanəsinin doğulduğu yerə çevrilib. Bu da təkcə Barseluşun deyil, ümumən Portuqaliyanın əsas simvollarından biri olan "Qalo"nun (xoruz) yaranmasına səbəb olub. Şəhər qədim dövrlərə aid arxeoloji qalıqların aşkar edildiyi ərazidə yerləşir. Barseluş şəhər statusunu 12-ci əsrdə alsa da, sürətli inkişafı 14-cü əsrin sonlarında başlayıb. Həmin dövrdə şəhər inkişaf edən kənd təsərrüfatı mərkəzinə çevrilib. 14-cü əsr Braqansa Hersoqunun iqamətgahı kimi siyasi əhəmiyyət qazanıb. Hazırda Barseluşda sakit həyat tempi bərqərardır. Keçmiş dövrlərin atmosferinə qərq olmaq, adət-ənənələr və sənətkarlıq haqqında məlumat əldə etmək bölgənin mədəniyyəti və tarixini dərindən anlamağa kömək edir.

### XORUZ NİYƏ BARSELUŞUN SİMVOLUDUR?

Bələdçim Anabela Xavier əsrlərdən bəri dillər əzbəri olan rəvayəti danışır: "Santyaqo de Kompostelaya gedən bir zəvvar Barseluşda yalandan oğurluqda ittiham olunur. O, hakimə "Əgər mən günahsızamsa, masanızdakı qızardılmış xoruz banlayacaq" - deyir. O, edama aparılarkən qızardılmış xoruz diriləşək banlayır. Kişi xilas olur və xoruz ədalət, iman və xoşbəxtlik simvoluna çevrilir. Şəhər də bu hadisədən sonra məşhurlaşır. Bir neçə il sonra zəvvar Barseluşa qayıdır və orada səmavi himayədarlarına minnətdarlıq əlaməti olaraq Məryəm Ana və Müqəddəs Ceymsə həsr olunmuş xatirə xaçı ucaldır".

Lakin əfsanə bununla bitmir. 1930-cu illərdə Barseluş yaxınlığındakı bir kənddən olan Dumingo Coto adlı bir dulusçu qovurulmuş xoruzun xatirəsinə gil xoruz hazırlayır. Heykəlcik müəyyən bir cazibə qazanır. Kəndlilər, daha sonra qonşu şəhərlərin sakinləri oxşar xoruzlar istəməyə başlayırlar. Beləliklə də bu boyalı xoruz Portuqaliyanın simvolu və ədalətin təntənəsinin rəmzi kimi məşhurlaşır.

Bu gün parlaq rənglərlə bəzənmiş Barseluş xoruzu məşhur Portuqaliya sənət əsərlərindən biri sayılır. Əl işləri, bazar köşkləri, meydanlar, karusellər onun şəkilləri ilə bəzədilib. Şəhərdəki suvenir mağazaları rəngarəng quşun müxtəlif ölçülü fiqurları ilə doludur, ona həsr olunmuş əyləncəli abidələr bir neçə yerdə küçələri bəzəyir. Rəngli xoruzun surəti süfrə qablarında təsvir olunub, süfrələr və dəsmallar üzərində naxışlanıb.





## Yaşamağa layiq şəhər

Barseluşu gəzdikcə görürsən ki, şəhərin təklif edəcəyi şeylər yalnız əfsanədən ibarət deyil. Kavado çayı şəhəri iki hissəyə bölür. Çayın üzərindəki qədim körpüdən digər tərəfə keçid üçün istifadə olunur. Şəhər 7000 artefakt kolleksiyasına malik öz Arxeoloji Muzeyi və Keramika Muzeyi ilə öyünür.

Muzeydə keramika sənətinin müxtəlif növləri nümayiş etdirilir. "Şəhərdə yəqin ki keramika ustalığı məktəbi mövcuddur", - deyə maraqlanıram: "Məktəb yoxdur. Ailə ənənələri var. Nəsillərlə davam edən ailə ənənəsi... Onların sayəsində bu sənət yaşayır. Sevindiricidir ki, gənclər də bu sənətə maraq göstərirlər. Onlar ata-babalarının yolunu davam etdirirlər. Ona görə əminik ki, bu sənət itməyəcək".

Barseluş keramikanın vətəni olduğu üçün burada bütün restoran, kafe, hotel sektorunda yalnız rəngbərəng kermik qablardan istifadə olunur. Barseluş həmçinin "Minho" sənəti ilə də tanınır. Bu fenomen eyni adlı bölgə üçün xarakterikdir və şəhərin tarixində dərin köklərə malikdir. Bu sənət keramika və orijinal Portuqaliya əl işlərini sevənlər üçün maraqlı bir təcrübədir. Bu sənətin nümunələrini hazırda şəhərin muzey və sərgi salonlarında, həmçinin suvenir dükanlarında görmək olur.








## "Orta əsrlər Barseluşu"

"Barseluş yalnız görməyə deyil, həm də yaşamağa layiq bir şəhərdir", - deyə bələdçi davam edir: "Əfsanəsi suvenirlərdə, freskalarda, emalatxanalarda və bələdçi kitablarında yaşayır, yarmarka və Mostra isə Minho bölgəsinin ənənələrini və yaradıcılığını ən yaxşı şəkildə təmsil edir".

Hər il iyun ayında burada şəhəri canlı yarmarkaya çevirən böyük "Orta əsrlər Barseluşu" yarmarkası keçirilir. Həmin vaxt şəhərə turistlər daha çox gəlirlər. Qış aylarında isə turistlərin sayı azalır: "Qışda buralarda havalar yağışlı və qarlı keçir. Xüsusən yağışlar aramsız yağır. Ona görə turistlərin sayı kəskin azalır. Yayda isə Barseluş turistlərin dincəlməsi, tarixdən, təbiətdən, qastronomiyadan, mədəniyyətdən zövq almaları üçün ideal yerdir. Yay aylarında turistlər o qədər çox olur ki, hotellərdə yer problemi yaranır. Ona görə də şəhər bələdiyyəsi turizmi inkişaf etdirmək üçün hotellərin sayını artırmaq, ümumən xidmət sektorunu gücləndirmək haqqında düşünür. Çünki Portuqaliyanın şimalında turizm get-gedə daha çox inkişaf edir. Ölkənin şimalını, onun turizm imkanlarını görmədən Portuqaliyanın digər regionları haqqında təəssürat yarana bilməz. Bu tarixi şəhərlər ölkə haqqında ümumi təəssürat formalaşdırır".

### YERLİ İSTEHSALÇILARINA DA DƏYƏR VERİR

Barseloş yerli istehsalçılarına da dəyər verir. Hava şəraitindən asılı olmayaraq, hər cümə axşamı şəhər Portuqaliyanın ən böyük bazarlarından birinə ev sahibliyi edir. Bazarda yerli məhsullar, keramika suvenirləri, geyimlər, əl işləri və taxta qablar satılır. Ətraf şəhər və kəndlərdən olan sahibkarlar da öz məhsullarını bu bazara gətirirlər.

ÜÇ ƏSRİN QƏZETİ
# Kaspi İDMAN
24 YANVAR ŞƏNBƏ 2026
www.kaspi.az

"Qarabağ"ın bu il Çempionlar Liqasında etdiyi uzun illər futbol tariximizdə inanılmaz nəticələr kimi qalacaq. Qurban Qurbanovun komandası həqiqətən də Avropanın və dünyanın bir nömrəli turnirində inanılmazı reallaşdırır.

# DRAMATİK OYUNDA MÖCÜZƏVİ SONLUQ

QARABAĞ 3:2 AYNTRAXT

Avropadakı qürurumuz Ağdamın "Qarabağ" klubu növbəti dəfə azarkeşlərinə inanılmaz sevinc hissi yaşadıb. Çempionlar Liqasının (ÇL) Liqa mərhələsinin yeddinci turunun Bakıda keçirilən oyununda təmsilçimiz Frankfurt "Ayntraxt"ını dramatik qarşılaşmada 3:2 hesabı ilə məğlub edərək möhtəşəm uğura imza atıb. Ağdam klubunun qələbə qolunu 90+4-cü dəqiqədə Bəhlul Mustafazadə vurub. Bununla da Bəhlul ÇL-in Liqa mərhələsində qol vuran ilk azərbaycanlı futbolçu kimi tarixə düşüb. Bu, həm də bir Azərbaycan klubunun avrokuboklarda Almaniya klubları üzərində ilk qələbəsi olub. Buna qədər alman klubları ilə keçirilən oyunlarda komandalarımız ən yaxşı halda heç-heçə edə bilmişdilər. Qələbəni bu qədər diqqətçəkən edən həm də "Qarabağ"ın üzləşdiyi hakim ədalətsizliyi idi. Oyunu idarə edən isveçrəli hakim Sandro Şererin komandamızın qapısına təyin etdiyi penalti hamını özündən çıxarmışdı. Daha çox da ona görə ki, cəmi iki dəqiqə əvvəl qonaqların qapısı qarşısında baş verən tamamilə oxşar epizodda oyunu davam etdirmişdi. Şükür ki, komandamız ruhdan düşmədi və bu haqsız qərardan sonra iki dəfə fərqlənərək qələbəni təmin etdi. Qələbə qolunun son saniyələrdə gəlməsi isə başqa bir dramatik an idi.



## Futbol şansı da komandamızın yanında idi

Ümumiyyətlə, komandamız oyuna yaxşı başlamışdı. Erkən qol azarkeşləri xeyli ümidləndirmişdi. Lakin qonaqların tezliklə hesabı bərabərləşdirməsindən sonra meydanda taktiki mübarizə gedirdi. Tərəflər meydanda maksimum güc sərf etsələr də, ehtiyatı da əldən vermirdilər. Heç-heçə tərəflərin heç birinə, xüsusən də qonaqlara sərf etmirdi. Amma son dəqiqələrdə qələbəni daha çox istəyən təmsilçimiz idi. "Qarabağ" "Ayntraxt"a inanılmaz təzyiq edirdi. Rəqib həm bu təzyiqi neytrallaşdırmaq, həm də qələbə topu üçün irəli atılmaq zorunda idi.

Etiraf edək ki, dünən futbol şansı da komandamızın yanında idi. Sanki futbol tanrısı soyuq havada stadiona toplaşan 30 min azarkeşin, evlərində televiziya ekranları qarşısında həyəcanla oyunu izləyən milyonlarla azərbaycanlının dualarını qəbul etdi..

## ÇL-İN NÖVBƏTİ MƏRHƏLƏSİNİN BİR ADDIMLIĞINDA

"Qarabağ"ın bu il Çempionlar Liqasında etdiyi uzun illər futbol tariximizdə inanılmaz nəticələr kimi qalacaq. Qurban Qurbanovun komandası həqiqətən də Avropanın və dünyanın bir nömrəli turnirində inanılmazı reallaşdırır. Kiçik büdcə, böyük olmayan təcrübə ilə özündən dəfələrlə böyük imkanlara malik klubları özü ilə hesablaşmağa məcbur edir. Bu qələbə komandanın qrupdan çıxmaq şanslarını da xeyli artırmış olub. Əminliklə demək olar ki, "Qarabağ" ÇL-in növbəti mərhələsinin bir addımlığındadır. Qurban Qurbanovun komandası hazırda turnir cədvəlində 10 xalla 18-cidir. "Qarabağ" sona bir tur qalmış pley-off-a yüksəlmək şansını artırıb. Komandamız sonuncu turda yanvarın 29-da səfərdə "Liverpul"la qarşılaşacaq. Ağdamlılar hətta son turda xal qazanmasa da, pley-offa vəsiqə verən yerlərdən birini tuta bilərlər.

### "HAKİMİN ƏDALƏTSİZ VƏ QƏRƏZLİ QƏRARLARINA BAXMAYARAQ..."

Komandanın uğurunu Prezident İlham Əliyev də yüksək qiymətləndirib. Oyundan sonra paylaşım edən dövlət başçısı "Qarabağ"ı təbrik edib, baş hakimlə bağlı iradlarını bölüşüb: "Hakimin ədalətsiz və qərəzli qərarlarına baxmayaraq, haqq-ədalət öz yerini tapdı. Birinci dəfə deyil ki, UEFA tərəfindən təyin edilən hakimlər ədalətsiz və qərəzli qərarları ilə "Qarabağ"ın qələbə yolunu kəsməyə çalışırlar. Ümid edirəm ki, UEFA bu hakimin kimin tərəfindən təyin olunmasına aydınlıq gətirəcək. Ədaləti və əyilməz ruhu məğlub etmək mümkün deyil. Yaşasın Qarabağ!"



AFFA prezidenti Rövşən Nəcəf də "Qarabağ"ı qələbə münasibətilə təbrik edib.

### "LİVERPULA İNAMLI GEDƏCƏYİK"

Oyundan sonra keçirilən mətbuat konfransında "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov komandasının intizamlı oyununa diqqət çəkib: "Bəzi oyunlarda olmayan intizam bu gün var idi. Sona qədər intizamı pozmamağı, qələbəyə inanmağı gördük. Şükürlər olsun ki, alındı. Daha sadə, daha sərbəst, daha güvənli, daha cəsarətli olmağa çalışdıq".

Q.Qurbanov növbəti turdakı "Liverpul"a qarşı oyun haqqında da danışıb: "Liverpula inamlı gedəcəyik. Həmin oyunda futbolçularımdan çəkinməyərək oynamağı istəyəcəyəm. Hər zaman demişəm ki, hər böyük qalibiyyət gələcəyə böyük inam verir. Bu cür klubların Bakıya gəlməsi, qələbələr qazanmağımız futbol azarkeşlərimizi sevdirir".